# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

07 may 2026-cı il, cümə axşamı
№ 079 (7146)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Bakı Brüssel üçün vacib tərəfdaşdır...

Bax səh. 3



# Azərbaycan-İtaliya: İqtisadi tərəfdaşlığın yeni gündəliyi

Bax səh. 2

# Siyasi əlaqələrin inkişafında parlament diplomatiyası...

Bax səh. 6

## Bakı-Roma: Münasibətlər ən yüksək səviyyədədir

Müstəqil Azərbaycanla Avropada siyasi təsir imkanları getdikcə artan, dünyanın 7-ci böyük iqtisadiyyatı sayılan, "Böyük Yeddilik"də təmsil olunan İtaliya arasında xoş mərama əsaslanan münasibətlər davamlı olaraq yüksələn xətlə inkişaf edir. İki ölkənin yüksəksəviyyəli rəsmilərinin qarşılıqlı səfərləri intensiv hal alıb. Bu günlərdə İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloninin respublikamıza səfəri baş tutub. Səfər çərçivəsində Prezident İlham Əliyev və Baş nazir Ciorcia Meloni ikitərəfli gündəliyin müxtəlif aspektləri, dinamik səciyyə daşıyan əməkdaşlığın perspektivləri ilə bağlı ətraflı müzakirələr aparıblar. Mətbuata verdiyi Bəyanatında Baş nazirin ölkəmizə səfərini dəyərləndirən dövlətimizin başçısı "Əminəm ki, Sizin səfəriniz Azərbaycan-İtaliya dostluq əlaqələrinin inkişafına növbəti töhfə olacaqdır", - deyə vurğulayıb.

Respublikamız bir qayda olaraq dünyaya müxtəlif sahələrdə əməkdaşlığı, həmrəyliyin gücləndirilməsini, sivilizasiyaların harmoniyasını, mütərəqqi inkişafı hədəfləyən müsbət nümunələr təqdim edir ki, bu da beynəlxalq səviyyədə təqdir olunur. Təsadüfi deyildir ki, bu gün istər geniş İslam coğrafiyasında, istərsə də Qərb dünyasında, o cümlədən də Avropa məkanında ölkəmizlə tərəfdaşlıq münasibətlərini inkişaf etdirməyə çalışan dövlətlərin sayı kifayət qədər çoxdur.

Azərbaycanla İtaliya arasında bərqərar ölan yüksəksəviyyəli münasibətlər buna yaxşı misaldır. Hazırda iki ölkə arasında böyük dostluq, qarşılıqlı, tam şəkildə təşəkkül tapmış anlaşma var və münasibətlər getdikcə dərinləşir. Əlaqələrin yüksək dinamikası müxtəlif amillərdən qaynaqlanır ki, burada dövlətlərin qətiyyətli siyasi iradəsi əsas şərt qismində...

Bax səh. 2




Bax səh. 4

## Heydər Əliyev irsinin konseptual əsasları: ənənə ilə müasirliyin vəhdəti

## Dövlət-biznes əməkdaşlığına töhfə

Bax səh. 6

## Mərkəzi Bank uçot siyasətini dəyişmədi

Bax səh. 6

## Sabitliyə və rifaha qənim kəsilnlər...

Bax səh. 6

## Heydər Əliyev strategiyası: Zəfərin başlanğıcı

Ulu öndər Heydər Əliyev deyirdi ki, "Müstəqilliyi qorumaq üçün güclü dövlət, güclü ordu və milli birlik lazımdır." Təsadüfi deyil ki, Azərbaycanın müstəqilliyini qoruyan, ölkəmizin beynəlxalq nüfuzunu möhkəmləndirən, davamlı iqtisadi modelin formalaşmasına zəmin yaradan məhz görkəmli dövlət xadimi, nəhəng siyasətçi Heydər Əliyevin siyasi iradəsi, strateji düşüncəsi oldu. Müstəqilliyin bərpasının ilk illərində siyasi qeyri-sabitlik, iqtisadi tənəzzül, tarixi torpaqların işğalı, daxili ziddiyyətlər dövlətin mövcudluğunu təhlükə altına qoymuşdu. 1993-cü ilin iyununda Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtması ilə daxili çəkişmələrə son qoyuldu, dövlət institutları gücləndirildi, hüquqi çərçivə yaratmaq üçün fundamental addımlar atıldı. 1995-ci ildə Konstitusiyanın qəbul edilməsi isə demokratik, hüquqi dövlətin qurulması istiqamətində mühüm addım idi. Bu tədbirlər sayəsində Azərbaycan uzunmüddətli inkişafını təmin etdi. O, postsovet məkanında həm daxili sabitliyi təmin etməyi, həm də böyük güclər arasında balanslı siyasət yürütməyi bacaran nadir siyasətçi kimi qiymətləndirilir.

Balans, praqmatizm və milli maraqların qorunması kimi fundamental prinsiplərə əsaslanan effektiv xarici siyasət strategiyası Azərbaycanın beynəlxalq arenada mövqeyini möhkəmləndirdi. Ulu Öndər Azərbaycanın geosiyasi mövqeyindən səmərəli istifadə edərək ölkəni beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaşa çevirdi. Əsas strateji addımlardan biri beynəlxalq şirkətlərin Xəzər dənizinin enerji ehtiyatlarına çıxışını təmin edən "Əsrin müqaviləsi"nin imzalanması oldu. Bu sənəd Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasında...

Bax səh. 5



## Avropa Parlamentinin sistemli və qərəzli kompaniyası

Bax səh. 7



## Yaxın Şərq müharibəsi bitdi?

Bax səh. 7

# İllik toplantıya hazırlıq...

## Prezident İlham Əliyev İslam İnkişaf Bankı Qrupunun sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Əl-Casirin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısının Məhəmməd Əl-Casirlə görüşləri məmnunluqla xatırlandı, onun ölkəmizə səfərlərinin tərəfdaşlığın genişləndirilməsi işinə töhfə verdiyi bildirildi.

Azərbaycanla İslam İnkişaf Bankı arasında uzun illərdir səmərəli əməkdaşlığın qurulduğu vurğulandı.

Bankın ölkəmizdə iqtisadiyyatın müxtəlif istiqamətlərində, həmçinin enerji, o cümlədən yaşıl enerji, kənd təsərrüfatı, su və irriqasiya sistemləri, infrastruktur və sosial sahələrdə bir sıra layihələr həyata keçirdiyi qeyd edildi. Bu xüsusda vurğulandı ki, 20-yə yaxın dövlət və özəl layihənin icrası üçün bank tərəfindən 1,2 milyard ABŞ dollarından çox vəsait ayrılıb.

Görüşdə bankın bu ilin iyununda Bakıda keçiriləcək İllik toplantılarına hazırlıq məsələləri müzakirə olundu.

Qonaq Ələt Azad İqtisadi Zonası ilə tanış olacağını, həmçinin Qarabağa səfər edəcəyini bildirdi.

Söhbət zamanı ölkəmizlə bank arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.



# Bakı-Roma: Münasibətlər ən yüksək səviyyədədir

Müstəqil Azərbaycanla Avropada siyasi təsir imkanları getdikcə artan, dünyanın 7-ci böyük iqtisadiyyatı sayılan, "Böyük Yeddilik"də təmsil olunan İtaliya arasında xoş mərama əsaslanan münasibətlər davamlı olaraq yüksələn xətlə inkişaf edir. İki ölkənin yüksəksəviyyəli rəsmilərinin qarşılıqlı səfərləri intensiv hal alıb. Bu günlərdə İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloninin respublikamıza səfəri baş tutub. Səfər çərçivəsində Prezident İlham Əliyev və Baş nazir Ciorcia Meloni ikitərəfli gündəliyin müxtəlif aspektləri, dinamik səciyyə daşıyan əməkdaşlığın perspektivləri ilə bağlı ətraflı müzakirələr aparıblar. Mətbuata verdiyi Bəyanatında Baş nazirin ölkəmizə səfərini dəyərləndirən dövlətimizin başçısı "Əminəm ki, Sizin səfəriniz Azərbaycan-İtaliya dostluq əlaqələrinin inkişafına növbəti töhfə olacaqdır", - deyə vurğulayıb.

**Dövlətlərin qətiyyətli siyasi iradələrindən qaynaqlanan qarşılıqlı münasibətlər**

Respublikamız bir qayda olaraq dünyaya müxtəlif sahələrdə əməkdaşlığı, həmrəyliyin gücləndirilməsini, sivilizasiyaların harmoniyasını, mütərəqqi inkişafı hədəfləyən müsbət nümunələr təqdim edir ki, bu da beynəlxalq səviyyədə təqdir olunur. Təsadüfi deyildir ki, bu gün istər geniş İslam coğrafiyasında, istərsə də Qərb dünyasında, o cümlədən də Avropa məkanında ölkəmizlə tərəfdaşlıq münasibətlərini inkişaf etdirməyə çalışan dövlətlərin sayı kifayət qədər çoxdur.

Azərbaycanla İtaliya arasında bərqərar ölan yüksəksəviyyəli münasibətlər buna yaxşı misaldır. Hazırda iki ölkə arasında böyük dostluq, qarşılıqlı, tam şəkildə təşəkkül tapmış anlaşma var və münasibətlər getdikcə dərinləşir. Əlaqələrin yüksək dinamikası müxtəlif amillərdən qaynaqlanır ki, burada dövlətlərin qətiyyətli siyasi iradəsi əsas şərt qismində çıxış edir. Həm Azərbaycanın, həm də İtaliyanın siyasi rəhbərliyi və hökumətləri onilliklər boyunca formalaşan dostluq münasibətlərinin qorunmasına və daha da möhkəmləndirilməsi səylərinə sadiqlik nümayiş etdirirlər. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev və Baş nazir Ciorcia Meloni mətbuata verdikləri bəyanatlarda böyük məmnunluq hissi ilə Azərbaycan və İtaliyanı strateji tərəfdaş ölkələr kimi təqdim ediblər.

Dost İtaliya Azərbaycanın müstəqilliyini 1 yanvar 1992-ci ildə tanıyıb, 8 may 1992-ci ildə iki ölkə arasında diplomatik əlaqələr qurulub. 1997-ci il mart ayında İtaliyanın Azərbaycanda, 2003-cü ilin dekabr ayında isə Azərbaycanın İtaliyada səfirliyi təsis edilib.

**Böyük rəmzi məna daşıyan səfər**

Əlaqələrin dinamikasına hər iki ölkənin yüksəksəviyyəli rəsmilərinin müntəzəm hal alan səfərləri öz müsbət təsirini göstərir. Tarixə nəzər salsaq görərik ki, Azərbaycan Prezidenti Heydər Əliyevin 1997-ci ilin sentyabrında İtaliyaya ilk rəsmi səfəri iki dövlət arasında bütün sahələrdə münasibətlərin inkişaf etdirilməsi üçün əhəmiyyətli addım olub. Həmin səfər zamanı Heydər Əliyev İtaliya Prezidenti, Baş nazir, Senatın və Deputatlar Palatasının sədrləri ilə görüşüb. İtaliya rəhbərləri Heydər Əliyevlə söhbət zamanı Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə ədalətli həllinə və Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına tərəfdar olduqlarını bildiriblər. Heydər Əliyevin İtaliyaya səfəri nəticəsində iki dövlət arasında siyasi, iqtisadi, mədəni və texniki əməkdaşlıq üzrə yeddi saziş imzalanıb.

Beləliklə, qarşılıqlı münasibətlər və əlaqələr artan xətt boyunca inkişaf etməyə başlayıb və bundan sonra bir sıra səfərlər həyata keçirilib. Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci ilin fevralında İtaliyaya dövlət səfəri reallaşıb. Böyük uğurla baş tutan dövlət səfəri çərçivəsində iki ölkə arasında siyasi, iqtisadi, enerji, mədəniyyət, turizm, kənd təsərrüfatı, hərbi, nəqliyyat, təhsil, idman, kosmos, investisiya və ixracın təşviqi və digər sahələri əhatə edən 28 sənəd imzalanıb. Dövlətimizin başçısının 2022-ci ilin sentyabrında İtaliyaya baş tutan işgüzar səfərinin gündəliyi də kifayət qədər geniş olub. Səfər çərçivəsində prezidentlər İlham Əliyev və Sercio Mattarella və digər yüksəksəviyyəli rəsmilər arasında aktual müzakirələr aparılıb. O cümlədən dövlətimizin başçısının iştirakı ilə Romada Azərbaycan Respublikasının səfirliyinin yeni binası açılıb, İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsi müəyyən edilib, fakültə və proqramların yaradılması ilə bağlı ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasimi keçirilib. Eyni zamanda, dövlətimizin başçısı Çernobbio şəhərində keçirilən beynəlxalq forumda iştirak və çıxış edib. Prezident İlham Əliyev həmçinin 2024-cü ildə dost ölkədə səfərlərdə olub.

İtaliya Prezidenti Sercio Mattarella isə 2018-ci ilin iyulunda və 2025-ci ilin oktyabrında Azərbaycana səfərə gəlib. Döst ölkənin Baş nazirinin ölkəmizə bundan əvvəlki səfəri 2013-cü ildə reallaşıb. Prezident İlham Əliyev Ciorcia Meloninin budəfəki səfərinin rəmzi mahiyyət daşıdığına xüsusi diqqət çəkib. Məlumdur ki, İtaliyanın Baş naziri mayın 4-də Avropa Siyasi Birliyinin Ermənistanda baş tutan 8-ci Zirvə görüşünə qatılıb və orada öz proqramını başa çatdırdıqdan sonra Azərbaycana təşrif gətirib. "Ermənistanda öz proqramınızı bitirib Azərbaycana gəlmək bizim üçün xüsusi məna daşıyır, çox böyük rəmzi məna daşıyır, eyni zamanda, Azərbaycana göstərilən hörmətin və xoş münasibətin bariz təzahürüdür", - deyə dövlətimizin başçısı vurğulayıb.

**İki mühüm strateji tərəfdaşlıq sənədi**

Azərbaycanla İtaliyanın strateji tərəfdaşlıq münasibətləri siyasi bəyanatlarla yanaşı, həm də möhkəm hüquqi bazaya, daha konkret desək, iki mühüm strateji tərəfdaşlıq sənədinə əsaslanır. İtaliya Avropanın böyük dövlətləri və G7 üzvləri arasında Azərbaycan ilə strateji tərəfdaşlıq sənədi imzalayan ilk dövlətdir. 2014-cü ildə imzalanan müvafiq sənədlə iki dost ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin təməli qoyulub. 2020-ci ilin fevralında Roma şəhərində Azərbaycan Prezidenti və İtaliyanın Nazirlər Şurasının sədri tərəfindən imzalanmış "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın Gücləndirilməsinə dair Birgə Bəyannamə" iki ölkə arasında ən yüksəksəviyyəli siyasi sənəd olmaqla növbəti illər ərzində münasibətlərin dərinləşdirilməsi üçün yol xəritəsini müəyyənləşdirib. Bu bəyannamə sadəcə iqtisadi əməkdaşlığı deyil, həm də siyasi, təhlükəsizlik və humanitar sahələri əhatə edən genişmiqyaslı fəaliyyət proqramına çevrilib.

Əsas məqamlardan biri də ondan ibarətdir ki, indiyədək imzalanan sənədlərdə əksini tapan müddəalar uğurla reallaşdırılır və bunun da nəticəsində iki dost ölkə bir-birinə daha da yaxınlaşır. "Bildiyiniz kimi, bizim siyasi əlaqələrimiz ən yüksək səviyyədədir", - deyə Prezident İlham Əliyev məmnunluğunu ifadə edib.

İki dost ölkənin siyasi rəhbərliyinin əlaqələrin perspektivləri barədə düşünmələri də böyük aktuallıq daşıyır. Zaman dəyişir və buna uyğun olaraq da qarşıya yeni çağırışlar çıxır. Bu gün izlənilən mürəkkəb geosiyasi və geoiqtisadi şəraitdə çoxtərəfli əməkdaşlıq ruhunda inkişaf edən Azərbaycan-İtaliya münasibətləri dünyaya gözəl nümunədir. Ancaq dəyişən zamanla əlaqədar olaraq müəyyən transformasiyalara da ehtiyac var. Yaxşı haldır ki, Bakıda aparılan müzakirələrdə tərəflər perspektiv əməkdaşlıqla bağlı ortaq mövqe sərgiləyiblər. Bundan məmnunluğunu ifadə edən Baş nazir Ciorcia Meloni vurğulayıb: "Bununla belə əlaqələrdə keyfiyyətcə böyük sıçrayış olub. Beləliklə, təbii ki, apardığımız çox geniş söhbətə görə təşəkkür edirəm. Söhbətimiz əsasında daimi siyasi əlaqələndirmə yolu ilə əməkdaşlığımızı transformasiya etmək üzərində razılığa gəldik. Buradan gələcəyə aid prioritetləri birgə təyin edəcəyik. Düşünürəm ki, indi yaşadığımız mürəkkəb beynəlxalq müstəvidə bu, çox əhəmiyyətli seçimdir. Bununla belə, ətrafımızda olan qeyri-sabitlik artır və aramızdakı aydın məsələlərin həlli daha böyük əhəmiyyət kəsb etməyə başlayır. Həmin aydın olan məsələlərdən biri təbii ki, İtaliya ilə Azərbaycan arasındakı münasibətlərdir".

*Mübariz ABDULLAYEV*



# Azərbaycan-İtaliya: İqtisadi tərəfdaşlığın yeni gündəliyi

Avropanın inkişaf etmiş dövlətlərindən biri olan İtaliya ilə Azərbaycanı tarixi dostluq əlaqələri birləşdirir. Hər iki ölkə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsini öz xarici siyasət kursunda prioritet istiqamətlərindən biri kimi diqqətdə saxlayıb, sarsılmaz tərəfdaşlığı inkişaf etdirən qətiyyətli addımlar atıb. Dövlət müstəqilliyini bərpa edən Azərbaycanın İtaliya ilə hərtərəfli tərəfdaşlığa xüsusi önəm verməsi münasibətlərin siyasi keyfiyyətini davamlı olaraq daha da yaxşılaşdırıb. İki dövlət arasında imzalanmış mühüm sənədlər, xüsusilə də dövlət başçıları səviyyəsində təsdiqlənən iki Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə siyasi, iqtisadi, humanitar sahələrin çoxşaxəli inkişafında yeni mərhələ açıb. Son illərdə ardıcıl xarakter alan dövlət və hökumət başçılarının qarşılıqlı səfərləri isə güclü siyasi dialoq və dostluq ruhunu daha da gücləndirərək yüksək zirvəyə çatdırıb.

**Avropada Azərbaycanın bir nömrəli ticarət tərəfdaşı**

Mayın 4-də ölkəmizdə səfərdə olan İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə Prezident İlham Əliyev arasımda keçirilən görüşlər Azərbaycan-İtaliya münasibətlərinin inkişafını əks etdirən mühüm hadisə olmaqla yanaşı, strateji tərəfdaşlığı daha yüksək səviyyəyə qaldırmaq üçün tarixi fürsət hesab edilə bilər. Baş nazirin səfərində prioritet istiqamətlər sırasında iqtisadi əməkdaşlığın mühüm yer tutduğunu və gündəliyin kifayət qədər çoxspektrli olduğunu nəzərə alsaq, perspektiv əməkdaşlıq üçün yeni münbit dövrün başladığını qeyd etmək mümkündür. Təkbətək və geniş tərkibli görüşlərdə, habelə tərəflərin mətbuata bəyanatlarında enerji, ticarət, investisiya və digər iqtisadi bölmələrdə əlaqələri təşviq edəcək yeni kursun prioritetləri ilə bağlı səsləndirilən fikirlər də bunu təsdiqləyir. Bəyan edildiyi kimi xüsusi rəmzi məna daşıyan bu səfər İtaliya və Azərbaycan arasında çox yaxşı olan strateji münasibətlərin inkişafında çox həlledici olacaq, enerji, infrastruktur, bağlantı və digər sahələr də əlavə impulslar verəcək.

İtaliya Avropada Azərbaycanın bir nömrəli ticarət tərəfdaşıdır, qarşılıqlı iqtisadi templər hər zaman öz dinamikliyini qoruyub saxlayıb. Prezident İlham Əliyevin mətbuata bəyanatında vurğuladığı kimi, ticari dövriyyə hər il davamlı olaraq artır. Keçən il ticarət dövriyyəsi təxminən 12 milyard dollar təşkil edib. Bu, ölkəmizin xarici ticarət dövriyyəsinin 24 faizi deməkdir. Eyni zamanda, Azərbaycan ixrac etdiyi məhsulların 45,3 faizini İtaliyaya göndərib. Bu o deməkdir ki, Azərbaycanın ixrac etdiyi hər 100 dollarlıq məhsulun 45 dolları İtaliyanın payına düşür. Azərbaycan həm də İtaliyanın Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. İtaliyanın Cənubi Qafqaz ölkələri ilə ticarət dövriyyəsinin 93 faizi Azərbaycanın payına düşür. Qeyd edilən rəqəmlər iqtisadi təmasların nə dərəcədə yüksək olmasını tam əks etdirir.

**İtaliyanın neft tələbatının 40 faizini ölkəmiz təmin edir**

Enerji sektoru ikitərəfli münasibətlərin xəttini təşkil edir. İtaliyanın aparıcı şirkətləri uzun illərdir ki, Azərbaycanın enerji bazarında fəal iştirak edir. 1995-ci ildən etibarən ölkəmizlə əməkdaşlıq edən "ENI" qrupu Bakı-Tbilisi-Ceyhan kəməri konsorsiumunda 5 faiz paya sahibdir. "Saipem", "ValvItalia", "Renco", "Bonatti", "Enereco", "Max Streicher", "Honeywell SRL" və digər şirkətlər isə Cənub Qaz Dəhlizinin inşasında ümumilikdə 6 milyard avrodan artıq dəyəri olan təchizat və xidmət müqavilələrini icra edib. Bununla yanaşı, SOCAR və onun törəmə şirkətləri ilə İtaliyanın mühəndislik və texnologiya sahəsində ixtisaslaşmış şirkətləri arasında da irihəcmli müqavilələr imzalanıb.

Bu gün İtaliya Azərbaycanın Avropada ən iri enerji tərəfdaşlarından biridir və bu əməkdaşlıq bütövlükdə qitənin enerji təhlükəsizliyi üçün xüsusi əhəmiyyət daşıyır. Cənub Qaz Dəhlizi və onun mühüm seqmenti olan TAP yalnız Azərbaycan qazının Avropa bazarına çıxarılması üçün deyil, həm də İtaliyanın enerji təchizatının şaxələndirilməsi baxımından strateji layihədir. Hazırda İtaliyada istehlak olunan neftin təxminən 40 faizi Azərbaycan hesabına təmin edilir. Ümumilikdə, Azərbaycan İtaliyanın neft və qaz təchizatında ikinci yerdə dayanır. 2025-ci ildə Azərbaycan 25 milyard kubmetr təbii qaz ixrac edib, onun 9,5 milyardı İtaliya bazarına tədarük olunub. Yeri gəlmişkən, TAP layihəsinin genişləndirilməsi və Avropaya daha çox qaz nəqli planında da İtaliya fəal iştirak edir. Bu prosesin başa çatmasından sonra bu ölkənin Mərkəzi Avropa bazarında enerji ötürücülüyündə strateji körpü funksiyası daha da artacaq.

Azərbaycanın milli neft korporasiyası - SOCAR-la "Italiana Petroli S.p.A" şirkəti arasında sıx əməkdaşlıq mövcuddur. SOCAR "Italiana Petroli" şirkətinin 99,82 faizlik səhmlərinin "API Holding"dən alınması barədə saziş imzalayıb ki, bu sövdələşmə rəqabətli "M&A" sərmayə planlarının nəticəsidir. "Italiana Petroli" İtaliyanın ən iri inteqrə olunmuş platformalarından biridir və Azərbaycanın milli enerji şirkətinin bu bazarda öz nüfuzunu möhkəmləndirməsi və Avropanın mərkəzi nöqtələrində yanacaq emalı bazası formalaşdırması baxımından strateji əhəmiyyət daşıyır.

**Qarabağ və Şərqi Zəngəzurda italyan şirkətləri fəal iştirak edir**

Ölkələrimiz arasında iqtisadi əlaqələr əsasən neft-qaz və enerji sektorunu əhatə etsə də, son illərdə qeyri-neft sektoru üzrə də ciddi əməkdaşlıq münasibətləri qurulub. Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, rabitə, xidmət və digər sektorlarda İtaliyanın 130 şirkəti fəaliyyət göstərir. İtaliya şirkətləri Azərbaycanda sənaye, tikinti və neft-qaz sektorunun inkişafı sahəsində mühüm rol oynayır. Onlar dövlət tərəfindən elan olunan tenderlərdə fəal iştirak edir, müxtəlif infrastruktur və enerji layihələrini icra edirlər. Əməkdaşlığın yeni sahəsi olan hərbi-texniki layihələrin həyata keçirilməsində də müsbət nəticələr var. Tərəflər müdafiə sənayesində birgə istehsalın təşkil edilməsi, İtaliya texnologiyalarının Azərbaycana mübadiləsi və digər təşəbbüslərin praktiki həllinə çalışır.

Bu fakt göstərir ki, ikitərəfli əməkdaşlıq yalnız enerji resurslarının tədarükü ilə məhdudlaşmır, həm də qarşılıqlı investisiya və istehsal sahələrində genişlənir. Qarabağ və Şərqi Zəngəzurda İtaliya şirkətləri 23 layihə həyata keçirib və işlərini davam etdirir. Digər xarici ölkələrin şirkətlərinə baxdıqda bu layihələrin icrasında İtaliyanın yenə qabaqcıl yerlərdə olduğunu görmək mümkündür.

İki ölkə arasında investisiya mübadilələri də dinamikdir, son illər qarşılıqlı sərmayə qoyuluşlarında artımlar müşahidə olunur. Azərbaycan İtaliya iqtisadiyyatına təxminən 3 milyard dollar sərmayə qoyub. Cənab Prezidentin xatırlatdığı kimi, Dövlət Neft Fondu son bir neçə il ərzində İtaliya iqtisadiyyatına təxminən 3 milyard dollar sərmayə qoyub və hazırda yeni sərmayə planları müzakirə edilir. Hər iki tərəf qarşılıqlı şəkildə sərmayələrin yeni layihələrə cəlb edilməsində maraqlıdır.

Bəyan edilən fikirlərdən və rəqəmlərdən də göründüyü kimi, iki ölkə arasında müsbət dinamika yalnız sənədlərdə deyil, real həyatda və praktiki əməkdaşlıq sahələrində də öz təsdiqini tapmaqdadır. Bu, Azərbaycan-İtaliya iqtisadi münasibətlərinin diversifikasiya əsaslı layihələrlə, o cümlədən qeyri neft-qaz sahəsində prioritet istiqamətlərlə genişlənəcəyinə dərin zəmin yaradır. İtaliya Baş nazirinin Azərbaycana səfəri isə ölkələr arasındakı iqtisadi münasibətlərin daha da dərinləşməsinə töhfələr verəcək.

*E.CƏFƏRLİ*

# Bakı Brüssel üçün vacib tərəfdaşdır...

## Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin strateji xarakteri

Son illər Azərbaycanın beynəlxalq münasibətlər sistemində fəal və aparıcı oyunçuya çevrilməsi həqiqəti bütün parametrlər üzrə qəbul edilir. 2020-ci ildə qazanılan zəfər yalnız hərbi strateji müstəvidə deyil, paralel olaraq həm də yeni geosiyasi reallıqların bünövrəsi kimi təhlil edilməkdədir. Bu qələbə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam təmin etməklə yanaşı, regionun iqtisadi, siyasi və təhlükəsizlik arxitekturasını dəyişdirdi. Azərbaycan artıq təkcə regional aktor kimi deyil, qlobal proseslərdə mövqeyi nəzərə alınan dövlət kimi tanınır. Bunun bariz nümunəsi BMT, Avropa İttifaqı, ŞƏT, Türk Dövlətləri Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində Bakının ortaya qoyduğu təşəbbüslərin dəstəklənməsidir.

Regional və qlobal proseslərdə milli maraqlara əsaslanan, praqmatik, qarşılıqlı bərabərhüquqlu münasibətlərə istinad edən siyasət yürütmək dövlətimizin əsas prioritetlərindəndir. Bu kontekstdə Avropa İttifaqı ilə münasibətlər xüsusi əhəmiyyət daşıyır. Çünki Azərbaycan - Aİ əlaqələri hər zaman işgüzar və tərəfdaşlıq dinamikasında inkişaf edib, qarşılıqlı maraqlar müstəvisində qurulub. Azərbaycan - Aİ münasibətləri siyasi dialoqdan tutmuş enerji, ticarət, nəqliyyat, təhsil və humanitar sahələrə qədər geniş spektri əhatə etməkdədir. Bu əlaqələr ilərdir ki, inkişaf edir və qarşılıqlı etimad, real maraqlar əsasında dərinləşərək strateji məzmun qazanır.

### Münasibətlərdə müsbət dinamika

Azərbaycan Prezidenti İlham Əliyev mayın 5-də Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən də bu məqam xüsusilə vurğulanıb. Kaya Kallas Antonio Koştanın ölkəmizə səfəri zamanı dövlətimizin başçısı və Avropa İttifaqı Şurasının Prezidenti tərəfindən birgə bəyanatın qəbul edilməsinin, həmin sənəddə Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin strateji xarakterinin vurğulanmasının əhəmiyyətinə toxunub. Qonaq Azərbaycanın Avropa İttifaqı üçün vacib tərəfdaş olduğunu deyib.

Bu məqam təşkilat ilə ölkəmiz arasında münasibətlərin yeni mərhələyə qədəm qoyduğunun göstəricisidir - qeyd edək ki, bu müsbət tendensiyanın təməli Azərbaycan və Aİ liderləri arasında 2025-ci ilin may ayında Tiranada və oktyabr ayında Kopenhagendə keçirilmiş konstruktiv görüşlər zamanı qoyulub. Ötən il ərzində Azərbaycan və Aİ rəsmilərinin qarşılıqlı səfərləri, təhlükəsizliklə bağlı müzakirələr, dialoq təşkilat ilə ölkəmiz arasında münasibətlərin inkişafına öz töhfəsini verib. Bu müsbət dinamika əməkdaşlığın yeni səviyyəyə yüksəlməsi üçün əlverişli şərait yaradıb. Vurğulanmalıdır ki, Azərbaycan dövləti mühüm toplantılarda, fundamental enerji dialoqlarında, yeni nizamın formalaşdırılması yönündə müzaikrlərdə əsas dövlətlərdən biri kimi qəbul olunur. Bunun da əsas səbəblərindən biri qalib Azərbaycanın xarici siyasət fəlsəfəsinin dünyanın qlobal əhəmiyyətə malik prinsipləri üzərində fokuslanmasındadır.

### Enerji dialoqu yüksək səviyyədədir...

Söhbət zamanı Prezident İlham Əliyev ölkəmizlə Avropa İttifaqı arasında enerji, bağlantılar, təhlükəsizlik, ticarət və digər sahələrdə əməkdaşlığın perspektivlərinə toxunub. Dövlətimizin başçısı Avropa İttifaqının Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri, eyni zamanda, ölkəmizin isə enerji təhlükəsizliyinin təmin olunması baxımından həmişə Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu vurğuladı. Bu xüsusda dövlətimizin başçısı qeyd etdi ki, bu yaxınlarda Azərbaycan qazı Avropa İttifaqının daha iki üzv ölkəsinə - Almaniyaya və Avstriyaya çatıb.

Geosiyasi reallıqlar fonunda Avropa İttifaqı məkanında enerji daşıyıcılarına tələbatın artması Cənub Qaz Dəhlizi ideyasını irəli sürən və bu layihənin əsas moderatoru qismində çıxış edən Azərbaycanın strateji baxışlarının uzaq məqsədlərə hesablandığını bütün cəhətləri ilə təsdiqləyir. 2022-ci ilin iyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında “Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu”nun imzalanması isə bu prosesdə xüsusi yerə malikdir. Avropa bazarında Azərbaycan qazına ehtiyac ildən-ilə daha da çoxalır - bu isə yeni idxalçı ölkələrin ortaya çıxmasını şərtləndirir. Digər tərəfdən, paralel olaraq Azərbaycanın ixrac potensialı da artmaqdadır. Ölkənin hədəfi 2030-cu ilə qədər qaz hasilatını daha 8 milyard kubmetr artırmaqdır - hazırda ixrac 25 milyard kubmetr təşkil edirsə, o zaman üçün təqribən 33 milyard kubmetr təşkil edəcək.



### Sülh regiona inkişaf vəd edir...

Görüş zamanı Azərbaycan-Ermənistan sülh prosesinə toxunulub, ölkəmizin sülh gündəliyinin gücləndirilməsi istiqamətində atdığı addımlar vurğulanıb. Azərbaycanla Ermənistan arasında artıq iqtisadi-ticari münasibətlərin yaradıldığı qeyd edilərək, bu xüsusda ölkəmizin Ermənistana gedən tranzit yüklərlə bağlı məhdudiyyəti birtərəfli qaydada aradan qaldırdığı bildirilib, İrəvanda keçirilmiş “Avropa Siyasi Birliyi”nin 8-ci Zirvə toplantısında Azərbaycan Prezidentinin videobağlantı formatında iştirakı tarixi hadisə kimi dəyərləndirilib.

Bakı yeni nizamın təhlükəsizlik konturlarını müəyyənləşdirən sabitləşdirici faktordur. 2020-ci ildə Cənubi Qafqazda yeni reallıqlar formalaşdıran Azərbaycan bölgənin siyasi xarakterini dəyişdi - regionumuz artıq əməkdaşlıq platforması kimi izlənir və qəbul olunur. Qalib ölkə olmasına baxmayaraq Azərbaycanın irəli sürdüyü sülh təşəbbüslərinin Cənubi Qafqazın həm siyasi, həm də iqtisadi gələcəyi üçün yeni strateji xətt müəyyənləşdirməsi vacib amildir. Ötən ilin yayında Vaşinqtonda baş tutan Sammit məhz bu reallıqların uğurlu nəticəsi kimi qəbul edilir. Aİ də hər zaman Vaşinqton Sammitini, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesini alqışlayır - bu isə, Azərbaycanın apardığı sülh siyasətinin və yaratdığı yeni reallıqların növbəti təsdiqidir.

### Rəqəmsal transformasiya üzrə əməkdaşlıq perspektivi...

Qeyd edək ki, qəbul zamanı Azərbaycanla Avropa İttifaqının gündəliyindəki rəqəmsal transformasiya, süni intellekt, bərpaolunan enerji və digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər müzakirə edilib. Söhbət zamanı Avropa İttifaqının minatəmizləmə sahəsində Azərbaycana dəstəyi təqdir edildi, TRIPP layihəsinin fəaliyyətə başlaması ilə onun regionda bağlantılar baxımından yaxşı imkanlar yaradacağı qeyd olunub.

Vurğulayaq ki, son illər Azərbaycanda rəqəmsallaşma sahəsində mühüm nailiyyətlər əldə olunub. Elektron hökumət sistemlərinin genişləndirilməsi, rəqəmsal identifikasiya mexanizmlərinin tətbiqi və bulud texnologiyalarının inkişafı dövlət idarəçiliyində səmərəliliyi artırıb. Qlobal rəqabətin kəskinləşdiyi, texnoloji innovasiyaların iqtisadi gücü müəyyən etdiyi bir dövrdə ölkəmizin rəqəmsal transformasiyaya uyğun strategiyalar formalaşdırması isə həyati əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı” ölkənin gələcək inkişaf modelində mühüm mərhələ kimi qiymətləndirilə bilər. Aİ ilə əməkdaşlıq isə bu sahədə daha yüksək inkişaf tempi əldə edilməsinə yol aça bilər.

***P.İSMAYILOV***

# Siyasi əlaqələrin inkişafında parlament diplomatiyası...



Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində güclü və nüfuzlu dövlət kimi tanınır. Ölkəmizin inkişafının, əldə etdiyi nailiyyətlərin əsasında isə uğurla, uzaqgörənliklə reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanır. Azərbaycan bu gün nəinki bölgə çərçivəsində, artıq dünya miqyasında etibarlı tərəfdaş, güclü ölkə kimi tanınır. Cənubi Qafqaz geosiyasi məkanında lider dövlət kimi çıxış edən ölkəmiz özünün çoxvektorlu və balanslaşdırılmış xarici siyasət strategiyası ilə həm ikitərəfli münasibətlər kontekstində, həm də çoxşaxəli əlaqələr fonunda yerləşdiyi regionun inkişafına mühüm töhfələr verir. Azərbaycanın fəal xarici siyasəti, həmçinin davamlı inkişafı onu siyasi, iqtisadi və mədəni cəhətdən qlobal mərkəzlərindən birinə çevirməkdədir.

Qeyd edək ki, ölkəmizin beynəlxalq əlaqələrinin inkişafında Azərbaycan parlamentinin də xüsusi rolu var. Başqa sözlə, parlament diplomatiyası dövlətimizin xarici siyasət kursunda mühüm yer tutur. Bu baxımdan, Milli Məclisin beynəlxalq fəaliyyəti xüsusi qeyd olunmalıdır. Məlumdur ki, Milli Məclis bir sıra beynəlxalq təşkilatlarda təmsil olunur, eləcə də bir çox ölkələrin parlamentləri ilə dostluq qrupları fəaliyyət göstərir. Əlbəttə, parlament çox mühüm hakimiyyət qoludur və onun işində beynəlxalq fəaliyyət xüsusi yer tutur. Parlamentarilər beynəlxalq miqyasda Azərbaycan həqiqətlərinin təbliği istiqamətində öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırlar.

Milli Məclisin fəal əməkdaşlıq etdiyi təşkilatlardan biri də Parlamentlərarası İttifaqdır. Son illər Azərbaycan bu təşkilatla əməkdaşlığı daha da gücləndirib, parlamentarilər qurumun işində daha fəal iştirak edirlər. Bugünlərdə Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqun ölkəmizə səfəri də qarşılıqlı əməkdaşlığın inkişafının göstəricisidir. Yeri gəlmişkən, mayın 5-də Azərbaycan Prezidenti İlham Əliyev Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqu qəbul edib. Söhbət zamanı dövlətimizin başçısının Martin Çunqonqla görüşləri məmnunluqla xatırlanıb. Parlamentlərarası İttifaqın Baş katibi Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı əldə edilmiş nailiyyətlər, həmçinin ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası münasibətilə Prezident İlham Əliyevi təbrik edib.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirib. Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında Vaşinqtonda sülh gündəliyi ilə bağlı əldə olunmuş nailiyyətləri qeyd edərək, ölkələrimiz arasında artıq iqtisadi-ticari münasibətlərin başladığını və Azərbaycanın birtərəfli qaydada Ermənistana gedən tranzit yüklər üzərindəki məhdudiyyəti aradan qaldırdığını bildirib.

Görüşdə Azərbaycan Prezidentinin Ermənistanın paytaxtı İrəvan şəhərində keçirilmiş “Avropa Siyasi Birliyi”nin 8-ci Zirvə toplantısında videobağlantı formatında iştirakı iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində tarixi hadisə kimi qiymətləndirilib. Dövlət başçısı Parlamentlərarası İttifaqın Azərbaycanla Ermənistan arasında parlament üzrə dialoqun, eyni zamanda, Azərbaycan və Ermənistan parlament sədrlərinin sülh prosesinin müzakirəsi üçün mütəmadi görüşlərinin keçirilməsinə şəraitin yaradılmasında rolunu müsbət dəyərləndirib.

Söhbət zamanı Azərbaycanla Parlamentlərarası İttifaq arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi də qeyd olunub. Baş katib Azərbaycanın Parlamentlərarası İttifaqın işində fəal iştirak etdiyini deyərək, ölkəmizin parlamentlərarası dialoqa verdiyi töhfəyə toxunub.

Görüşdə, həmçinin işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, həmçinin Azərbaycanın mina problemindən əziyyət çəkməsi, minaların mülki insanlara və quruculuq prosesinə törətdiyi maneələr vurğulanıb, əməkdaşlığın mövcud vəziyyəti, əlaqələrin perspektivləri və parlamentlərarası dialoqun inkişafı ətrafında fikir mübadiləsi aparılıb.

Səfər zamanı təşkilatın rəhbəri Milli Məclisin sədri Sahibə Qafaraova ilə də görüşüb, eləcə də, Ulu Öndər Heydər Əliyevin məzarını və Zəfər parkını ziyarət edib. Baş katib jurnlistlərə açıqlamasında Milli Məclisin sədri və deputatları ilə çox səmərəli müzakirələr apardığını vurğulayaraq deyib: “Biz iki qurum - PAİ və Milli Məclis arasında əməkdaşlığı müzakirə etdik və bu münasibətlərin sabit, uğurlu olduğu barədə razılığa gəldik. Biz müxtəlif sahələrdə əməkdaşlığı davam etdirmək və möhkəmləndirmək əzmindəyik. Bir neçə günlük Azərbaycan səfərimin mahiyyəti də bundan ibarətdir. Bir daha demək istəyirəm ki, mən vəzifəmdən ayrılsam da, bilirəm ki, Azərbaycan və Parlamentlərarası İttifaq arasındakı əməkdaşlıq getdikcə daha da güclənəcək. Çünki mənim xələfim də regionda həyata keçirdiyimiz bu sülh gündəliyinə tam sadiqdir”.

Martin Çunqonq bildirib ki, Ermənistan və Azərbaycan arasında ticarətin və digər əməkdaşlıq sahələrinin bərpası müşahidə olunur. Eyni zamanda, hər iki ölkənin icraedici hakimiyyətləri səviyyəsində əməkdaşlıq artmaqdadır. “İndi Azərbaycanın və Ermənistanın parlamentləri arasında da əməkdaşlıq genişlənir. Münaqişələrin hökm sürdüyü bir regionda Azərbaycan və Ermənistan arasındakı irəliləyişləri dəstəkləməliyik. Çünki regionun digər ölkələrinin münaqişəyə daha dərindən sürükləndiyini gördüyümüz halda, bu iki ölkə münaqişədən çıxır, onlar əks istiqamətdə irəliləyirlər və biz bunu yüksək qiymətləndiririk”, - deyə o, qeyd edib.

Xatırladaq ki, Parlamentlərarası İttifaq ən qədim və ən böyük beynəlxalq parlament təşkilatıdır. 1889-cu ildə yaradılmış bu ittifaq dünyanın 179 ölkəsinin parlamentarilərini və bır sıra parlamentlərarası təşkilatı birləşdirir. Dünyada ən nüfuzlu parlament təşkilatlarından biri olan Parlamentlərarası İttifaq öz fəaliyyətində parlamentarizmin inkişafına, insan haqlarına riayət edilməsinə, həmçinin millətlərarası sülhün bərqərar olmasına və beynəlxalq təhlükəsizliyin qorunub saxlanmasına kömək edir. Ötən ay İstanbulda Parlamentlərarası İttifaqın (PAİ) 152-ci Assambleyası keçirilmişdi. Türkiyə Böyük Millət Məclisinin ev sahibliyi ilə təşkil olunan tədbirdə “Gələcək nəsillər naminə ümidin gücləndirilməsi, sülhün təmin edilməsi və ədalətin qorunması” mövzusu müzakirə edilib. Ümumilikdə 160-a yaxın ölkənin qatıldığı tədbirdə parlament sədrləri və deputatlar da daxil olmaqla 2400-dən çox nümayəndə iştirak edib. Azərbaycanı Milli Məclisin sədri Sahibə Qafarovanın rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib. Tədbir çərçivəsində Assambleya sessiyaları, daimi komitə müzakirələri, forumlar və tematik görüşlər daxil olmaqla 80-dən çox tədbir keçirilib.

Tədbir çərçivəsində Azərbaycan və Ermənistan parlament spikerlərinin görüşü də baş tutub. Bu, spikerlərin ilk görüşü deyil. Parlamentlərarası İttifaqın təşəbbüsü və vasitəçiliyi ilə əvvəllər də belə görüşlər reallaşdırılıb. Bütün bunlar nüfuzlu beynəlxalq parlament təşkilatının Cənubi Qafqaz regionunda sülhün tərəfdarı olduğunu təsdiqləyir.

***Nardar BAYRAMLI***

# Heydər Əliyev irsinin konseptual əsasları: ənənə ilə müasirliyin vəhdəti





















Mayın 6-da Nəsimi rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatı və Bakı Xoreoqrafiya Akademiyasının birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev irsinin konseptual əsasları: ənənə ilə müasirliyin vəhdəti" mövzusunda tədbir keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir: "Ulu Öndərin milli məzmunlu, bəşəri xarakterli fəaliyyəti bir dövrü deyil, bir-birindən kəskin fərqlənən iki mərhələni - həm SSRİ dönəmini, həm də müstəqillik illərini əhatə edir. Şübhəsiz ki, o, fəaliyyətinin bütün mərhələlərində Azərbaycanın inkişafına, milli həmrəyliyin gücləndirilməsinə, dövlət maraqlarının qorunmasına və dövlətçilik ənənələrinin yaşadılmasına xidmət edən böyük tarixi nailiyyətlərə imza atmışdır. Heydər Əliyevin müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi dönəm inkişaf və sabitlik dövrü kimi xarakterizə olunur. Ümummilli Lider ictimai-siyasi sabitliyi, vətəndaş həmrəyliyini və davamlı sosial-iqtisadi inkişafı təmin etməklə müasir, hüquqi və demokratik dövlət quruculuğuna nail oldu. Digər tərəfdən, müstəqilliyin ilk illərində təcrid vəziyyətində olan Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmləndirilməsi qarşısında duran bir çox mühüm strateji hədəflərin gerçəkləşməsini şərtləndirdi. Zamanın Ulu Öndərə başa çatdırmağa imkan vermədiyi işləri Onun siyasi varisi - cənab İlham Əliyev yerinə yetirdi. Şanlı Zəfər qazanaraq öz ərazi bütövlüyünü və mütləq suverenliyini təmin edən qalib Azərbaycan dövləti bu gün dünya azərbaycanlılarının qürur mənbəyi, ümid və güvənc yeridir".

Natiq qeyd edib ki, Ulu Öndərin çoxşaxəli siyasətinin prioritet istiqamətlərindən biri də xalqımızın zəngin mədəni irsinin, tarixi ənənələrinin və milli dəyərlərinin qorunması və gələcək nəsillərə ötürülməsi olmuşdur: "Ümummilli Lider incəsənətə və mədəniyyətə xüsusi önəm göstərərək bu sahələrin inkişafını dövlət siyasətinin mühüm tərkib hissəsi kimi müəyyənləşdirmişdir. Müdrik dövlət xadiminin mədəniyyət və incəsənət xadimləri ilə mütəmadi görüşlər keçirməsi onların yaradıcı fəaliyyətlərinə böyük stimul olmaqla milli mədəniyyətimizin inkişafına təkan vermişdir. Ulu Öndərin müəyyən etdiyi mədəniyyət siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Eyni zamanda, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu milli-mədəni irsimizin qorunması və dünyada tanıdılması istiqamətində mühüm layihələr həyata keçirir. Fondun irəli sürdüyü təşəbbüslər cəmiyyətimizin yaradıcı və intellektual potensialının inkişafına, mənəvi dəyərlərin qorunub yaşadılmasına və mədəniyyətlərarası dialoqun təşviqinə xidmət göstərir. Xüsusilə qeyd olunmalıdır ki, muğam sənətinin beynəlxalq səviyyədə tanıdılması ilə əlaqədar görülən işlər Azərbaycanın mədəniyyət diplomatiyasının çox mühüm istiqamətlərindən biri kimi böyük əhəmiyyətə malikdir".

Tahir Budaqovun sözlərinə görə, Azərbaycanın zəngin mədəniyyət ənənələrinin yaşadılmasında və inkişaf etdirilməsində təhsil müəssisələrinin rolu danılmazdır: "Bakı Xoreoqrafiya Akademiyası bu prosesdə önəmli rol oynayır. Zəngin ənənələrə malik olan bu təhsil ocağı ölkəmizə çoxsaylı görkəmli incəsənət xadimləri bəxş etmişdir. Burada yetişən gənc istedadlar Azərbaycanı beynəlxalq səviyyədə layiqincə təmsil edərək mədəniyyətimizin daha geniş miqyasda tanınmasına, ölkəmizin nüfuzunun artmasına önəmli töhfələr verirlər. Akademiyanın müəllim və tələbə heyətinin fədakar əməyi yüksək qiymətə layiqdir".

"Bu gün həm müstəqillik dövrünün, həm də çoxəsrlik tarixinin zirvə hadisələrinə şahidlik edən qədirbilən Azərbaycan xalqı Ümummilli Liderin misilsiz xidmətlərini olduqca yüksək qiymətləndirir. Heç şübhəsiz, Ulu Öndərin zəngin dövlətçilik irsi bundan sonra da ölkəmizə böyük uğurlar qazandıracaqdır" , - deyə T.Budaqov əlavə edib.

Bakı Xoreoqrafiya Akademiyasının tədris işləri üzrə prorektoru, rektor vəzifəsini icra edən, Azərbaycanın Əməkdar artisti Nailə Məmməd-Zadə çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyev incəsənətə daim önəm verən bir şəxsiyyət olub: "Xoreoqrafiya isə onun xüsusi diqqət mərkəzində idi. Hazırda Bakı Xoreoqrafiya Akademiyası adı altında fəaliyyət göstərən bina məhz Onun sayəsində tikilib. Heydər Əliyev incəsənət xadimlərimizə xüsusi diqqət göstərib, onların fəaliyyətini yüksək qiymətləndirib. Bu şəxsiyyətlər sırasında Azərbaycan xoreoqrafiya sənətində öz sözünü demiş görkəmli xoreoqraflar Qəmər Almaszadə, Leyla Vəkilova, Əminə Dilbazi, Əlibaba Abdullayev və başqalarının adlarını qeyd etmək olar".

Nailə Məmməd-Zadə qeyd edib ki, Azərbaycan xoreoqrafiya sənətinin inkişafına böyük maraq göstərən Heydər Əliyev işinin çoxluğuna baxmayaraq, müxtəlif tədbirlərdə iştirak edirdi: "Onun bu sahəyə diqqəti Azərbaycan cəmiyyətində xoreoqrafiya sənətinə marağın artmasına da təsir edirdi. Heydər Əliyevin rəhbərliyi dövründə balet sənətinə göstərilən qayğı bu sahənin inkişafına böyük kömək edib. Onun verdiyi qərarlar, sənət adamlarına göstərdiyi diqqət xoreoqrafiya sənətinin inkişafında mühüm rol oynayıb. Belə ki, balet sənəti nümayəndələrinə mükafatlar verilməsi, təqaüd ayrılması onları daha da ruhlandırıb. Sənətkarların yubiley və xatirə gecələrinin keçirilməsi, onların irsinin yaşadılması daim Ulu Öndərin diqqət mərkəzində olub. Heydər Əliyev milli xoreoqrafiya sənətinin inkişaf etdirilməsi üçün görülən tədbirlərə nəzarət edir və öz dəyərli tövsiyələrini verirdi. Gəlin, biz də bu dəyərləri qoruyaq, mədəniyyətimizi sevək və onu gələcək nəsillərə ötürək. Bu, böyük şəxsiyyətin xatirəsinə ən gözəl hörmətimiz olar. Heydər Əliyevin dediyi kimi, yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaradacaq, həmişə inkişaf edəcək", - deyə Nailə Məmməd-Zadə vurğulayıb.

Milli Məclisin deputatı Ziyad Səmədzadə çıxışında Ulu Öndər Heydər Əliyevin həm sovet dövründə, həm də müstəqillik illərində Azərbaycan iqtisadiyyatının inkişafı üçün tarixi xidmətlərindən söz açıb. Onun sözlərinə görə, Ulu Öndərin fəaliyyəti nəticəsində Azərbaycan keçmiş ittifaqda aqrar respublikadan sənaye respublikasına çevrildi, qısa müddətdə ön sıralara çıxdı.

Z.Səmədzadənin fikrincə, 1970-ci illərdə yaradılmış elmi-texniki istehsal potensialı olmasaydı, bu gün müstəqil Azərbaycan çoxlu çətinliklərlə üzləşə bilərdi: "Zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev Azərbaycanda yenidən böyük siyasətə qayıtdıqda respublikanı ağır fəlakətdən qurtarmaq üçün Azərbaycanın tarixi-iqtisadi xüsusiyyətlərinə, geosiyasi şəraitinə, milli mənafelərinə uyğun inkişaf strategiyası hazırladı, düşünülmüş və sistemli tədbirlər həyata keçirdi, beynəlxalq təşkilatlarla, inkişaf etmiş ölkələrlə əməkdaşlığın formalaşması, iqtisadi islahatların aparılmasını prioritet vəzifələr kimi müəyyən etdi. Bu gün biz böyük qürur hissi ilə deyə bilərik ki, müstəqil Azərbaycan dövlətinin yeni iqtisadi sisteminin yaradılması Heydər Əliyevin adı ilə bağlıdır".

Natiq qeyd edib ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inkişafın yeni mərhələsini yaşayır. Onun sözlərinə görə, ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş dövlətimiz dünyada söz sahibidir: "Bu gün dünyanın aparıcı siyasətçiləri, dövlət xadimləri, ekspertləri ölkəmizin dinamik inkişafını yüksək qiymətləndirirlər. Bütün bu uğurların əsasında Heydər Əliyev siyasəti dayanır".

Çıxış edən Nəsimi rayon Ağsaqqallar Şurasının sədri, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Vaqif Şadlinski Azərbaycanın tərəqqisində Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərindən bəhs edib. O bildirib ki, hələ SSRİ dövründə ölkəmizin yüksəlişini təmin edən Ulu Öndər müstəqilliyin bərpasından sonra yenidən siyasi hakimiyyətə gəldikdən sonra xalqımıza böyük uğurlar qazandırdı.

Vaqif Şadlinski qeyd edib ki, bu gün möhtəşəm Zəfərin təməlində Heydər Əliyevin böyük əməyinin, zəkasının, uzaqgörənliyinin izləri var: "Ulu Öndər Heydər Əliyev bütün varlığı, bilik və bacarığı ilə xalqına, torpağına bağlı dahi şəxsiyyət idi. Onun sayəsində Azərbaycan parçalanmaqdan, bir dövlət kimi yox olmaq təhlükəsindən xilas oldu. Güclü və qüdrətli Azərbaycanın gələcək nailiyyətləri məhz Ulu Öndərin adı ilə bağlıdır. Bu gün biz qalib xalq kimi bir daha fəxr edirik ki, azərbaycanlıyıq. Hər birimiz Ulu Öndərin ruhu qarşısında baş əyir, onun xatirəsini daim uca tuturuq. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin yürütdüyü siyasət bizi daha da qüdrətli və yenilməz bir dövlətə çevirir".

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Tədbir konsert proqramı ilə davam edib.

# Heydər Əliyev ideyaları ölməzdir

## Səhiyyəmizin dünya miqyasına çıxarılmasında Ulu Öndərin rolu...

Bu gün müstəqil Azərbaycan Respublikası Heydər Əliyev dühasının işığında hüquqi və demokratik dövlət quruculuğunda inamla irəliləyir. Həyatımızın bütün sahələrini əhatə edən, Heydər Əliyev ideyaları hər yerdə müvəffəqiyyətlə həyata keçirilir. Respublikamızda səhiyyənin inkişafı və əhalinin sağlamlığının qorunması sahəsində əldə edilən nailiyyətlər də Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır.

Bütün digər sahələrdə olduğu kimi Ulu Öndərin uzaqgörənliyi, bilik və bacarığı səhiyyə sahəsində də dərin iz qoymuş, Azərbaycan səhiyyəsinin inkişafında əvəzedilməz xidmətlər göstərmiş, səhiyyə və təbabət həmişə onun diqqət mərkəzində olmuş və insanların sağlamlığına xüsusi diqqət yetirmişdir. Heydər Əliyev ölkəmizin səhiyyə sahəsinin təkcə respublikada deyil beynəlxalq miqyasa çıxmasına, səhiyyənin dayanıqlı inkişafına əlverişli şərait yaratmışdı. Səhiyyəmizin uğurları inkişaf etmiş ölkələr tərəfindən sözsüz qəbul olunurdu. Onun prezidentliyi dövründə səhiyyəmizin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində xeyli işlər görülmüş, tibb müəssisələrində təmir-tikinti işləri aparılmış, səhiyyə müəssisələri yeni avadanlıq və cihazlarla təchiz edilmişdi.

Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə səhiyyədə yeni bir dövr - ciddi inkişaf dövrü başlandı. Bu dövrdə Ümummilli Liderimiz əsl səhiyyə işçisi kimi fəaliyyət gostərmiş, səhiyyə ocaqlarının yenidən qurulmasını və təkmilləşdirilməsini həmişə diqqət mərkəzində saxlamışdır. Səhiyyənin inkişafı Heydər Əliyevin tövsiyyələri, göstərişləri əsasında həyata keçirilirdi. Təkcə 1970-1980-ci illərdə Azərbaycanda yüzlərlə iri səhiyyə obyektləri inşa olundu, müasir səhiyyə ocaqlarının istifadəyə verilməsinə başlanıldı. 1970-1973-cü illərdə Azərbaycan Respublikasında təkcə ana və uşaqların sağlamlığı ilə məşğul olan müəssisələrin sayı 150-dən 180-ə çatdırıldı. Şəhər və rayonlarda fəaliyyət göstərən xəstəxana və ya poliklinikalar yeni binalarla təmin edildi.

Ümummilli Lider Heydər Əliyev səhiyyə quruculuğuna köhnə səhiyyə ocaqlarının yenidən qurulması, yenilərinin tikilməsi və ən müasir aparatlarla təchiz edilməsi, ittifaq əhəmiyyətli ixtisaslaşdırılmış tibb mərkəzlərinin açılması, əhalinin kütləvi dispanser qeydiyyatından keçirilməsi və sahə həkimlərinin fəaliyyətinin artırılmasından başladı. Ulu Öndər hər zaman tibb işçilərinə böyük qayğı göstərmiş və çıxışlarında həkimlik peşəsinin öz xalqına, sənətinə yüksək sədaqət tələb edən bir iş olduğunu vuğulayırdı.

Səhiyyənin ayrılmaz sahələrindən olan Azərbaycan tibb elmi və tibb təhsilinə və kadr məsələsinə həmişə böyük diqqət yetirən və qayğı göstərən dahi öndərimiz Tibb institutunun professor və müəllimləri ilə görüşündəki nitqində göstərmişdir ki, cəmiyyət qarşısında məsuliyyət hər birimizdən tələb edir ki, hər bir məzunumuz yüksək dərəcəli mütəxəssis olsun.

Müstəqilliyimizin ilk illərindəki ictimai-siyasi hadisələr, yaşanılan böhran əhalinin sağlamlığının pisləşməsinə səbəb olmuşdur. Demoqrafik göstəricilər pisləşmiş, təhlükəli yoluxucu xəstəliklər çoxalmışdır.

Səhiyyəyə diqqətin artırılması və bu sahənin möhkəmləndirilməsi üçün Heydər Əliyevin təşəbbüsləri və səyləri sayəsində Azərbaycan müstəqillik dövründə tezliklə mühüm nailiyyətlər qazana bilmişdir. Ölkəmizdə səhiyyənin inkişafı və əhalinin sağlamlığının qorunması sahəsində əhəmiyyətli nailiyyətlər əldə etmək mümkün olmuşdur. Ulu Öndər insan sağlamlığının həyatda ən əziz və ən müqəddəs nemət olduğunu dəfələrlə göstərərək Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə bu sahədə çox mühüm dövlət əhəmiyyətli qərarlar qəbul etmişdir. Onun bilavasitə rəhbərliyi ilə ölkənin səhiyyə sistemində ardıcıl və məqsədyönlü islahatlar aparıldı. İlk növbədə səhiyyənin hüquqi-normativ bazasının təkmilləşdirilməsi və dünya standartları səviyyəsinə qaldırılması diqqət mərkəzində saxlanılırdı. Həmin məqsədlə ölkəmizdə səhiyyənin qanunvericilik bazasını gücləndirən bir sıra qanunlar, o cümlədən müstəqil respublikamızın ilk qəbul olunmuş Konstitusiyasına uyğun olaraq ölkəmizin həyatında və tarixində çox böyük əhəmiyyət kəsb edən və müstəsna rol oynayan "Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının Qanunu" qəbul edildi. Bu Qanun hazırda əhalinin sağlamlığı keşiyində duran hər bir səhiyyə işçisinin proqram sənədinə çevrilmişdir. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda sağlamlığın qorunması sahəsində vətəndaşların bir çox təbəqələrinin hüquqları, tibbi sosial yardım almaq, sosial sığorta hüququ, tibb və əczaçılıq işçilərinin hüquqları və sosial müdafiəsi və s. məsələlər öz əksini tapmışdır.

İnsana, onun sağlamlığına həmişə qayğı göstərən Heydər Əliyevin əhalinin sağlamlığı ilə əlaqədar "Qan və qan komponentlərinin donorluğu haqqında" və "İnsanın immun çatışmazlığı virusu"nun törətdiyi xəstəliyin - "AİDS"in yayılmasının qarşısının alınması haqqında", "Əczaçılıq fəaliyyəti haqqında", "İnsan orqan və toxumalarının transplantasiyası haqqında", "Tibbi sığorta haqqında" imzaladığı sərəncamları, vərəm xəstəliyinin yayılmasının qarşısını almaq üçün işlənib hazırlanan milli proqramlar sağlamlıq və sosial sahədə keçirdiyi müdrik siyasətin nəticəsi idi. 1990-1995-ci illərdə respublikamızda geniş yayılan poliomielit xəstəliyinin aradan qaldırılmasında Heydər Əliyevin xidməti unudulmazdır. Onun 1996-cı ildə peyvənd tədbirində və Ümumdünya Sağlamlıq Günündə şəxsən iştirakı poliomielitə qarşı mübarizə probleminin dövlət səviyyəsində keçirilməsini bir daha təsdiq etdi. Əsas nailiyyətlərdən biri də qızılca ilə xəstələnmənin kəskin şəkildə azalması idi. Peşə xəstəliklərinə qarşı mübarizə tədbirləri xüsusi əhəmiyyət kəsb edirdi.

Heydər Əliyev həm səhiyyəyə əlavə vəsait cəlb etmək, həm də bazar iqtisadiyyatına keçid dövrünü yaşayan ölkəmizdə səhiyyəni bir fəaliyyət növü kimi üzərində dövlət nəzarətinin azaldılması üçün özəl səhiyyə sisteminin tətbiqinə şərait yaratdı. Onun bilavasitə göstərişlərinə əsasən "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Ulu Öndərin ölkəmizdə səhiyyə sahəsində həyata keçirdiyi islahatlar çərçivəsində ən mühüm xidmətlərindən biri olan özəl səhiyyə sisteminin tətbiqi həm də tibb işçilərinin maddi rifah halının yaxşılaşması üçün imkanlar açdı. Özəl və dövlət tibb müəssisələri arasında rəqabət yaranması sayəsində əhaliyə göstərilən tibbi xidmətin səviyyəsi yüksəldi, bu isə səhiyyəmizin gələcək inkişafı üçün təkan oldu. Heydər Əliyevin iştirakı ilə özəl tibb xidməti şirkəti - "Medi Klab", "Respublika Artroloji Mərkəzi", "Ailə Sağlamlıq Mərkəzi" əhalinin xidmətinə verilmiş, Respublika Milli Onkologiya Mərkəzinin və Elmi-Tədqiqat Oftalmologiya institutlarının tikintisi başa çatdırılmışdır.

1997-ci ildə Səhiyyə Nazirliyində keçirilən Əlaqələndirmə Müşavirəsində Ulu Öndərimiz yoluxucu xəstəliklərə, xüsusən malyariya və vərəm xəstəliklərinə qarşı irihəcmli mübarizəni dövlət səviyyəsində aparılması vəzifəsini irəli sürdü. O, əsrin bəlası sayılan narkomaniya ilə mübarizənin problemlərinə də dövlət səviyyəsində əhəmiyyət vermişdir. Bu məqsədlə "Azərbaycan Respublikasında 2000-ci ilədək narkomanlığa, narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyəsinə qarşı mübarizə üzrə" ümummilli proqram qəbul olunmuşdur.

Ən yadda qalan hadisə 1918-ci il iyunun 17-də Şərqdə ilk demokratik ölkə olan Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təşkil edilən Səhiyyə Nazirliyinin yaranma tarixi şərəfinə 17 iyun günü 2001-ci ildə ulu öndər Heydər Əliyevin Sərəncamı ilə Azərbaycan tibb işçilərinin peşə bayramı günü elan edilməsi oldu. Həmin il peşə bayramı ərəfəsində ulu öndər Heydər Əliyevin tibb işçilərinə göndərdiyi ilk təbrik məktubunda deyilirdi: "Tibbin insan cəmiyyəti ilə yaşıd olan bir tarixi var və siz də bütün fəaliyyətinizi bu sahə ilə bağlayaraq, həyatınızı olduqca qədim, nəcib və xeyirxah bir işə - insanların sağlamlığının qorunması işinə həsr etmisiniz". Həkimlik peşəsi həmişə və hər yerdə, o cümlədən Azərbaycanda da şərəfli peşə sayılmışdır. Lakin məhz Heydər Əliyevin səyləri sayəsində bu peşəyə güclü məhəbbət yaranmışdır.

Bu gün Heydər Əliyev ideyaları səhiyyə sahəsində də Prezdentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə inamla həyata keçirilir. Ölkə vətəndaşlarının tibbi xidmətlərə əlçatanlığını artıran icbari tibbi sığortanın tətbiqi hökumətin səhiyyə sahəsində apardığı islahatların ən vacib tərkib hissəsidir. Müasir və keyfiyyətli tibbi xidməti təmin edən səhiyyənin maliyyələşdirilməsinin yeni forması olan icbari tibbi sığorta xəstəliklərin erkən mərhələdə aşkar edilməsində, daha ağır mərhələyə keçməsinin qarşısının alınmasında, ucqarlarda belə yaşayan əhalinin keyfiyyətli tibbi xidmətlərlə təmin olunmasında əhəmiyyətli rol oynayır. "İnsan sağlamlığı sosial məsələlər arasında ən birinci yerdədir və bu gün Azərbaycanda bu sahədə gözəl nəticələr var"-deyən Prezident İlham Əliyevin fərman və sərəncamları ilə Azərbaycan səhiyyəsi müasir dövrümüzdə bütün xüsusiyyətlərinə görə, özünün yeni inkişaf mərhələsini yaşayır. "Şəkərli diabet üzrə Dövlət Proqramı", "Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı", "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair Dövlət Proqramı" və s. insan sağlamlığına mənfi təsir göstərən halların qarşısının alınmasına yönəlib. Heydər Əliyev Fondunun həyata keçirdiyi "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat naminə" proqramları çərçivəsində görülən işlər əhalinin sağlamlığının qorunması işinə ən dəyərli töhfələrindəndir. Ölkəmizdə bu gün həyata keçirilən Dövlət Proqramları, genişmiqyaslı tədbirlər xəstəliklərin profilaktikasına, əhalinin sağlamlığının qorunmasına xidmət edir. Ölkəmizdə 700-dən artıq tikilmiş və əsaslı təmirdən çıxmış, ən müasir avadanlıqlarla təchiz edilən tibb mərkəzləri, tibb işçilərinin təkmilləşməsinə verilən diqqət Azərbaycan dövlətinin və Azərbaycan Prezidenti İlham Əliyevin əhalinin, eləcədə gələcək nəsillərin sağlamlığına göstərdiyi qayğının parlaq təzahürüdür.



*İqbal Əmənullayev*
*YAP Lənkəran*
*rayon təşkilatının sədri*

# Heydər Əliyev strategiyası: Zəfərin başlanğıcı

Ulu Öndər Heydər Əliyev deyirdi ki, "Müstəqilliyi qorumaq üçün güclü dövlət, güclü ordu və milli birlik lazımdır." Təsadüfi deyil ki, Azərbaycanın müstəqilliyini qoruyan, ölkəmizin beynəlxalq nüfuzunu möhkəmləndirən, davamlı iqtisadi modelin formalaşmasına zəmin yaradan məhz görkəmli dövlət xadimi, nəhəng siyasətçi Heydər Əliyevin siyasi iradəsi, strateji düşüncəsi oldu. Müstəqilliyin bərpasının ilk illərində siyasi qeyri-sabitlik, iqtisadi tənəzzül, tarixi torpaqların işğalı, daxili ziddiyyətlər dövlətin mövcudluğunu təhlükə altına qoymuşdu. 1993-cü ilin iyununda Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtması ilə daxili çəkişmələrə son qoyuldu, dövlət institutları gücləndirildi, hüquqi çərçivə yaratmaq üçün fundamental addımlar atıldı. 1995-ci ildə Konstitusiyanın qəbul edilməsi isə demokratik, hüquqi dövlətin qurulması istiqamətində mühüm addım idi. Bu tədbirlər sayəsində Azərbaycan uzunmüddətli inkişafını təmin etdi. O, postsovet məkanında həm daxili sabitliyi təmin etməyi, həm də böyük güclər arasında balanslı siyasət yürütməyi bacaran nadir siyasətçi kimi qiymətləndirilir.

Balans, praqmatizm və milli maraqların qorunması kimi fundamental prinsiplərə əsaslanan effektiv xarici siyasət strategiyası Azərbaycanın beynəlxalq arenada mövqeyini möhkəmləndirdi. Ulu Öndər Azərbaycanın geosiyasi mövqeyindən səmərəli istifadə edərək ölkəni beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaşa çevirdi. Əsas strateji addımlardan biri beynəlxalq şirkətlərin Xəzər dənizinin enerji ehtiyatlarına çıxışını təmin edən "Əsrin müqaviləsi"nin imzalanması oldu. Bu sənəd Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasında dönüş nöqtəsi idi. Bu müqavilə yalnız iqtisadi deyil, həm də siyasi əhəmiyyət daşıyırdı. Dünyanın aparıcı şirkətləri və dövlətləri ilə qurulan əməkdaşlıq Azərbaycanın beynəlxalq nüfuzunu artırdı, ölkənin təhlükəsizlik zəmanətlərini gücləndirdi. Azərbaycan qısa müddətdə beynəlxalq təşkilatlarda fəal iştirak edən, regional və qlobal layihələrdə söz sahibi olan bir dövlətə çevrildi. Bu addım investisiya axınını təmin etdi, infrastrukturun inkişafını və ölkənin iqtisadi müstəqilliyini gücləndirdi.

Ulu Öndərin iqtisadi siyasəti uzunmüddətli strateji planlaşdırma və təbii sərvətlərdən səmərəli istifadəyə əsaslanırdı. Neft və qaz sektorunun inkişafı iqtisadi artımın hərəkətverici qüvvəsinə çevrildiyi vaxtda paralel olaraq iqtisadi şaxələndirməyə də xüsusi diqqət yetirilirdi. Əlverişli investisiya mühitinin yaradılması, struktur islahatları və özəl sektorun inkişafı dayanıqlı iqtisadiyyatın formalaşmasına töhfə verdi. Genişmiqyaslı infrastruktur layihələri həyata keçirildi, nəqliyyat və enerji sistemləri modernləşdirildi. Azərbaycan tədricən regional iqtisadi mərkəzə çevrildi, enerji təhlükəsizliyi və nəqliyyat kommunikasiyalarında vacib rol oynadı. Bu, ölkəmizə təkcə daxili sabitliyi təmin etmək üçün yox, həm də beynəlxalq səhnədə təsirini gücləndirməyə imkan verdi. Beləliklə, Heydər Əliyevin liderliyi postsovet məkanında sabitləşdirici faktor kimi dəyərləndirilirdi.

Təbii ki, bu intensiv inkişafın fonunda milli kimliyin qorunması, dövlətçilik şüurunun möhkəmləndirilməsi və cəmiyyətin vahid məqsədlər ətrafında birləşdirilməsi də Ulu Öndərin müəyyən etdiyi siyasətin əsas prioritetlərindən biri idi. Bu xüsusda Azərbaycançılıq ideyasının sistemli şəkildə formalaşdırılması və dövlət siyasəti səviyyəsinə yüksəldilməsi məhz xalqımızın Ümummilli liderinin adı ilə bağlıdır.

Milli-mənəvi dəyərləri, tarixə bağlılığı, dövlətə sədaqəti və vətəndaş həmrəyliyini özündə birləşdirən bu ideoloji platforma Heydər Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun şəkildə formalaşdırılaraq milli ideologiya səviyyəsinə yüksəldi. Azərbaycançılıq müxtəlif etnik və dini mənsubiyyətə malik insanların vahid dövlət və ümummilli maraqlar ətrafında birləşməsini təmin edən bir ideyadır. Bu, xüsusilə çoxmillətli və çoxkonfessiyalı Azərbaycan cəmiyyətində sabitliyin və harmoniyanın qorunmasında mühüm rol oynayır.

1990-cı illərin əvvəllərində ölkənin üzləşdiyi ağır sınaqlar dövründə məhz bu ideologiya xalqın birliyini təmin edən mühüm amilə çevrildi. Milli ideologiyanın möhkəmləndirilməsi nəticəsində vətəndaşlarda milli təəssübkeşlik, dövlətə bağlılıq hissi daha da gücləndi, müstəqilliyin qorunması ümummilli məqsədə çevrildi.

Azərbaycançılıq ideologiyasının mühüm istiqamətlərindən biri də dünya azərbaycanlılarının birliyidir. Böyük siyasətçi xaricdə yaşayan soydaşlarımızın milli kimliklərini qoruması və Azərbaycanla əlaqələrinin möhkəmləndirilməsi üçün ardıcıl siyasət həyata keçirdi. Bu siyasət nəticəsində diaspor təşkilatlanması gücləndi, azərbaycanlıların beynəlxalq aləmdə koordinasiyalı fəaliyyəti üçün zəmin yarandı. Azərbaycançılıq ideyası ölkə daxilində olduğu kimi, xaricdə də milli birliyin əsas dayağına çevrildi.

"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, azərbaycanlıyam!" söyləyən Ulu öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyası eyni zamanda multikultural dəyərləri özündə ehtiva edir. Müxtəlif millətlərin və dinlərin nümayəndələrinin sülh və qarşılıqlı hörmət şəraitində yaşaması Azərbaycan modelinin əsas xüsusiyyətlərindən biridir. Bu yanaşma ölkədə sosial sabitliyin qorunmasına, mədəni müxtəlifliyin zənginlik kimi qəbul olunmasına və beynəlxalq səviyyədə Azərbaycanın tolerant ölkə kimi tanınmasına şərait yaratdı.

Bu gün azərbaycançılıq ideologiyası müstəqil Azərbaycanın inkişaf strategiyasının əsas istiqamətlərindən biri olaraq qalır. Qloballaşma şəraitində milli kimliyin qorunması, informasiya təsirlərinə qarşı dayanıqlılığın artırılması və milli maraqların müdafiəsi baxımından bu ideologiyanın əhəmiyyəti daha da artır.

Azərbaycançılıq həm daxili sabitliyin təminatçısı, həm də xarici siyasətdə milli maraqların qorunmasının ideoloji dayağı kimi çıxış edir.

Heydər Əliyev siyasi irsi bu gün də Azərbaycanın inkişafına təsir göstərməkdə davam edir. Ümummilli Liderin əsasını qoyduğu dövlət idarəçiliyi, iqtisadi siyasət və beynəlxalq münasibətlər prinsipləri aktuallığını qoruyub saxlayır. Bu fəaliyyət yalnız bir dövrü əhatə etməklə məhdudlaşmır. Onun müəyyən etdiyi strateji kurs bu gün də Azərbaycanın inkişafının əsasını təşkil edir. Dövlətçilik ənənələrinin formalaşdırılması, milli maraqların qorunması və müasir idarəçilik prinsiplərinin tətbiqi Ümummilli Liderin mirasının əsas elementləridir. Onun yaratdığı siyasi və iqtisadi baza Azərbaycanın gələcək inkişafı üçün möhkəm zəmin hazırladı. Bu gün Azərbaycan regionda sabitlik, inkişaf və əməkdaşlıq mərkəzi kimi çıxış edir.

Azərbaycanın müasir tarixində əldə olunan ən mühüm nailiyyətlərdən biri, şübhəsiz ki, ölkəmizin ərazi bütövlüyünün təmin olunması və suverenliyinin tam bərpasıdır. Bu tarixi uğur uzun illər ərzində formalaşdırılmış strateji xəttin, siyasi iradənin və uzaqgörən dövlətçilik konsepsiyasının məntiqi nəticəsidir.

Heydər Əliyevin uzaqgörən siyasətinin mühüm istiqamətlərindən biri Azərbaycanın mövqeyinin beynəlxalq hüquq müstəvisində möhkəmləndirilməsi idi. Onun apardığı balanslı və praqmatik xarici siyasət nəticəsində Azərbaycanın ərazi bütövlüyü beynəlxalq təşkilatlar tərəfindən tanındı və dəstəkləndi. Bu siyasət ölkəmizin haqlı mövqeyini dünya ictimaiyyətinə çatdırmaqla yanaşı, gələcəkdə baş verəcək proseslər üçün hüquqi baza formalaşdırdı. Azərbaycanın beynəlxalq arenada etibarlı tərəfdaş kimi tanınması isə siyasi və diplomatik uğurların əsasını təşkil etdi.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və suverenliyinin tam bərpası Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun uğurlu davamı kimi qiymətləndirilməlidir. Onun yaratdığı möhkəm dövlətçilik təməli, iqtisadi potensial, diplomatik mövqe və ordu quruculuğu strategiyası Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən real nəticələrə çevrildi. Beləliklə, Azərbaycanın suverenliyinin bərpası və ərazi bütövlüyünün təmin olunması milli tariximizin şanlı səhifəsidir. Bu uğurun təməlində isə güclü dövlətçilik ideologiyası, strateji düşüncə və qətiyyətli liderlik keyfiyyətləri dayanır.

Zaman göstərdi ki, Ulu Öndərin də söylədiyi kimi, "biz müstəqilliyimizi böyük çətinliklər bahasına əldə etmişik. Onu qorumaq isə onu qazanmaqdan daha çətin və məsuliyyətlidir." Bu gün qalib və güclü Azərbaycanın timsalında əminliklə söyləyə bilərik ki, güclü lider həm də güclü dövlətin qarantıdır.



*Nigar Məmmədova*
*Milli Məclisin deputatı*

# Dövlət-biznes əməkdaşlığına töhfə

## "Caspian Agro Week" aqrar sahədə yerli və xarici şirkətlər arasında tərəfdaşlığı genişləndirir

Bakı Ekspo Mərkəzində keçirilən "Caspian Agro Week"in açılış mərasimində çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirib ki, sərgi yalnız məhsul və texnologiyaların nümayişi ilə məhdudlaşmır, sektorun müxtəlif istiqamətlərini əhatə edən forumlar, həm-



çinin ölkədə fəaliyyət göstərən iri ixtisaslaşmış innovativ təsərrüfatlara təşkil olunan səfərləri özündə birləşdirir. "Caspian Agro Week" formatında keçirilməsi forumlar, panel müzakirələri və işgüzar görüşlər vasitəsilə aqrar sahənin aktual məsələlərinin daha geniş şəkildə müzakirəsinə imkan yaradır. Sərgi həftəsi çərçivəsində bu il bir sıra ölkələrin kənd təsərrüfatı nazirləri və rəsmi nümayəndə heyətlərinin iştirakı tədbirin beynəlxalq əməkdaşlıq platforması kimi əhəmiyyətini və aqrar sahədə tərəfdaşlıq imkanlarının genişləndiyini bir daha sübut edir. Əminəm ki, sərgi çərçivəsində keçiriləcək görüşlər və müzakirələr yeni tərəfdaşlıqların qurulmasına, innovativ təşəbbüslərin təşviqinə və aqrar sektorun davamlı inkişafına mühüm töhfə verəcək.

**Fermerlər üçün görüş mərkəzi**

Qeyd edək ki, "Caspian Agro Week" - 19-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgi və Forumunda müxtəlif ölkələrdən olan dövlət qurumlarının nümayəndələri, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycandakı təmsilçisi və digər beynəlxalq təşkilatların əməkdaşları, aqrar sahədə fəaliyyət göstərən şirkətlər, yerli və xarici investorlar, fermerlər iştirak edir. Regionun aparıcı aqrar platformalarından biri kimi mövqeyini möhkəmləndirən "Caspian Agro" sərgisi 2026-cı ildə tamamilə yeni konseptual yanaşma - "Caspian Agro Week" formatında təşkil olunur. Mayın 8-dək davam edəcək sərgi həftəsində 45 ölkədən 447 şirkət, eləcə də Azərbaycanın 51 bölgəsini təmsil dən 500-dən çox fermer öz məhsullarını nümayiş etdirir. Sərgi çərçivəsində təşkil olunmuş "Retail Center - Ticarət şəbəkələrinin görüş mərkəzi" isə şirkətlər və iş adamları arasında birbaşa ünsiyyətin yaradılması, biznes layihələri üzrə qarşılıqlı anlaşmaların əldə olunması və praktiki addımların atılması üçün mühüm fürsət hesab edilə bilər.

**Azad ərazilərdə həyata keçirilən aqrar layihələr**

Kənd təsərrüfatı naziri işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən aqrar layihələrin sayının artdığını və ölkəmizin kənd təsərrüfatı strategiyasında xüsusi yer tutduğunu da xatırladıb. Bildirib ki, həmin ərazilərdə istehsal və emal edilən kənd təsərrüfatı məhsulları ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunması, regionların sosial-iqtisadi inkişafı, məşğulluğun artırılması və ekoloji dayanıqlılığın qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Hazırda icra edilən layihələr kənd təsərrüfatının modernləşdirilməsinə, fermerlərin rifahının yüksəldilməsinə və aqrar istehsalın rəqabət qabiliyyətinin artırılmasına xidmət edir. Bu istiqamətdə dövlət tərəfindən fermerlərə və sahibkarlara geniş dəstək mexanizmləri tətbiq olunur. Subsidiyaların verilməsi, güzəştli kreditlərin təqdim edilməsi, kənd təsərrüfatı texnikasına əlçatanlığının artırılması, aqrar sığorta sisteminin genişləndirilməsi və innovativ texnologiyaların tətbiqinin təşviqi aqrar sektorun dayanıqlı inkişafına mühüm töhfə verir. Eləcə də, aqrar sahədə rəqəmsallaşmanın genişləndirilməsi, "ağıllı kənd təsərrüfatı" həllərinin tətbiqinə, su resurslarından səmərəli istifadəsinə , torpaq münbitliyinin qorunması və ekoloji cəhətdən dayanıqlı istehsal modellərinin təşviqinə geniş yer verilməkdədir.

**Kiçik və orta biznesin satış imkanları genişlənir**

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov isə bildirib ki, bu cür sərgilər nümunəvi platforma kimi kiçik və orta biznes subyektlərinin satış imkanlarının genişləndirilməsi məhsul və xidmətlərin tanıdılmasına öz töhfəsini verir.KOBİA bu çərçivədə öz imkanlarını artıraraq 2018-ci ildən indiyə qədər 2 mindən çox kiçik və orta sahibkarlıq subyektlərinin müxtəlif sahələrdə ixtisaslaşmış yerli və xarici sərgilərdə iştirakına dəstək olub. Bu, kənd təsərrüfatı və qida sektorunun ölkə iqtisadiyyatının, xüsusilə də qeyri-neft sektorunun vacib sahələrindən biri kimi əhəmiyyətini artırıb. Ötən müddət ərzində ölkəmiz bu sahədə müxtəlif uğurlara imza atıb.

**"Made in Azerbaijan" brendi xarici sərgilərdə maraq doğurur**

Azərbaycan şirkətlərinin xarici ölkələrdə təşkil edilən beynəlxalq sərgilərdə də fəaliyyəti genişlənir və bu tədbirlər ölkəmizin ixrac potensialının nümayişi baxımından mühüm əhəmiyyət kəsb edir. İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev qeyd edib ki, may və sentyabr aylarında xarici ölkələrdə keçiriləcək beynəlxalq sərgilərdə Azərbaycan şirkətlərinin öz məhsullarını "Made in Azerbaijan" vahid ölkə stendində təqdim etməsi nəzərdə tutulur. Oktyabrda isə şirkətlərin 6-cı "Rebuild Karabakh" şərgisində iştirakı planlaşdırılır.Bu sərgilərin qeyri-neft sektorunun inkişafına və həmin malların ixrac imkanlarının genişləndirilməsinə öz töhfəsini verdiyini xatırladan AZPROMO rəhbəri bildirib ki, cari ilin yanvar-mart aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 862 milyon dollar təşkil edib. Bu, ötən illə nisbətdə 10 fazidən çox artım tempi deməkdir. Hazırda Azərbaycan 73 ölkəyə qida və kənd təsərrüfatı məhsulları ixrac edir.Eləcə də, ötən il 50-dək yerli şirkət "Made in Azerbaijan" brendi ilə 6 beynəlxalq sərgidə iştirak edib ki, bu da ixracın təşviqində mühüm rol oynayıb. Cari il yanvar ayında Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən "Gulfood 2026" - 31-ci Beynəlxalq Qida və İçkilər Sərgisində Azərbaycan şirkətlərinin təqdim etdiyi məhsullar körfəz ölkələri ilə yanaşı, digər qitə dövlətlərinin biznes icması üçün də xüsusi maraq doğurub, mal mübadiləsinə dair anlaşmalar əldə olunub. Həmçinin, martda Azərbaycan məhsulları Almaniyanın Düsseldorf şəhərində keçirilən "ProWein 2026" - 30-cu Beynəlxalq Şərab və Spirtli İçkilər Sərgisində "Made in Azerbaijan" vahid ölkə stendində nümayiş olunub, sərgidə 11 yerli şirkət iştirak edib. Həmin sərgidə də Azərbaycanın məhsullarının Avropaya ixracı məsələləri barədə müsbət qərarlar qəbul edilib.

*E.CƏFƏRLİ*

# Mərkəzi Bank uçot siyasətini dəyişmədi

## Faiz dəhlizinin aşağı həddi 5,5 , yuxarı həddi isə 7,5 faiz səviyyəsində saxlanılıb

Mərkəzi Bankın (MB) İdarə Heyətinin qərarı ilə faiz dəhlizinin bütün parametrləri dəyişməz saxlanılıb. Belə ki, uçot dərəcəsi sabit - 6,5 faiz səviyyəsində sabit rejimdə müəyyən edilib. Qərara əsasən, faiz dəhlizinin aşağı həddi 5,5 faiz, yuxarı həddi isə 7,5 faiz səviyyəsində saxlanılıb. Faiz dəhlizi ilə bağlı qərar ölkədəki mövcud inflyasiya hədəfləri dəhlizinə və gözləntilərə, eləcə də valyuta bazarında vəziyyətə əsasən qəbul edilib. Həmçinin, qlobal geosiyasi gərginliklərin yaratdığı risklər, qlobal maliyyə konyunkturu və daxili makroiqtisadi mühit, eləcə də pul siyasəti qərarlarının real sektora ötürücülüyü, faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəf daxilində olması əsas götürülüb.

**Yaxın Şərqdəki vəziyyət qiymətləri artırır**

Uçot dərəcəsi ölkədəki cari iqtisadi vəziyyət və inflyasiya səviyyəsi nəzərə alınaraq təyin edilir. Əgər inflyasiya səviyyəsi yüksəlirsə, Mərkəzi Bank uçot dərəcəsini yüksəldir və əksinə, inflyasiya səviyyəsi endikcə, uçot dərəcəsi də endirilir. MB bəyan edir ki, uçot siyasətində əsas fundamental rol oynayan amillərdən biri - inflyasiya çərçivəsi qanedici olaraq qalmaqdadır. Doğrudur, ötən iclasdan bəri artan geosiyasi gərginlik inflyasiyanın risklər balansında xarici amillərin rolunu yüksəldib. Yaxın Şərqdə baş verən münaqişə təchizat zəncirlərində maneələr yaratmaqla nəqliyyat və sığorta xərclərinin yüksəlməsinə, eyni zamanda qlobal enerji bazarlarında artan istiqamətdə qiymət dəyişkənliyinin güclənməsinə səbəb olub. Ancaq bu geoiqtisadi risklərə rəğmən MB istehlak bazarında vəziyyəti təhlükəli hesab etmir və illik inflyasiyanın hədəf daxilində qaldığını xatırladır. Belə ki, 2026-ci ilin martında 12 aylıq inflyasiya 5,6 faiz təşkil edib. İllik qiymət artımı qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 6,5 faiz, ödənişli xidmətlər üzrə 5,7 faiz, qeyri-qida məhsulları üzrə isə 3,7 faiz olub. İllik baza inflyasiya 5,5 faiz çərçivəsində qalıb.

**İdxal inflyasiyası risk olaraq qalır**

İlin qalan dövründə qlobal proseslərin davam etməsi ticarət tərəfdaşlarında inflyasiyanın dinamikasını müəyyən edən əsas amil olacaq və Azərbaycanın istehlak bazarı, idxal inflyasiyası fonunda qiymət dalğalanmalarına səbəb ola bilər. Məlumat üçün xatırladaq ki, beynəlxalq institutlar və maliyyə-kredit təşkilatları bir müddət əvvəl açıqladıqları yenilənmiş proqnoz hesabatlarında qlobal inflyasiya ilə bağlı gözləntiləri dəyişib və artım rəqəmləri fərz edilir. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və digər agentliklərin məlumatlarına görə, 2026-cı ilin ikinci və növbəti rüblərində əmtəə qiymətləri indeksi illik 0,9-1,6 faiz arta bilər. Bu baxımdan cari ilin növbəti aylarında Azərbaycanda idxal inflyasiyasının miqyası ticarət tərəfdaşlarındakı inflyasiya ilə bilavasitə bağlı olacaq. Bununla yanaş,ı nominal effektiv məzənnə dinamikası qiymət rejiminə təsir edə bilər. Belə ki, inflyasiya gözləntilərinin istehlakı ehtimal olunandan daha çox artırması başlıca daxili risk faktorları hesab edilir.

MB-nın müəyyən etdiyi baza ssenarisinə əsasən, cari və növbəti ildə illik inflyasiyanın hədəf daxilində olacağı proqnozlaşdırılır. Belə ki, baza ssenarisi üzrə may proqnozlarına görə illik inflyasiyanın 2026-cı ildə 5,9 faiz, 2027-ci ildə isə 4,5 faiz olacağı gözlənilir. İnflyasiya proqnozunun artma istiqamətində dəyişdirilməsi əsasən xarici mənşəli xərc amillərinin fəallaşmasından irəli gəlir. Bu amillərə qlobal ərzaq qiymətlərinin artım tempinin yüksəlməsi, ticarət tərəfdaşlarında inflyasiya təzyiqlərinin aktivləşməsi və nominal effektiv məzənnənin möhkəmlənmə tempinin səngiməsi aiddir. Tələb amillərinin fevral proqnozu ilə müqayisədə zəifləməsi təklif amillərinin inflyasiyaya artırıcı təsirini qismən neytrallaşdırıb. Ümumilikdə, may proqnozuna görə, inflyasiyanın əhəmiyyətli hissəsinin təklif amilləri hesabına formalaşacağı gözlənilir.

Xarici mühitdə davam edən ssenariyə uyğun olaraq Mərkəzi Bank 2026-cı ilin ikinci rübü və ümumilikdə il ərzində müxtəlif ssenarilər üzrə qiymətləndirmələr apararaq antiinflyasiya xarakterli pul siyasətini və inflyasiyaya təsir imkanlarını artırmaq istiqamətində tədbirlərini davam etdirəcək. Əsas məqsəd inflyasiyanın birrəqəmli həddə saxlanılmaqla həm də uçot siyasətini sabit saxlamaqdır.




**Valyuta bazarında vəziyyət əlverişlidir**

Cari ilin ötən dövründə valyuta bazarında da vəziyyət idarəolunan səmtdə davam edib. Təklif tələbi üstələyib ki, bu da həm nağd, həm də qeyri-nağd seqmentlərdə özünü göstərir. İlkin rəqəmlərə görə 2026-cı ilin 4 ayında mübadilə şöbələri tərəfindən nağd xarici valyutanın alışı satışını 190 milyon dolları üstələyib. Rezident fiziki şəxslərin əmanətlərinin dollarlaşma səviyyəsinin son 12 ayda 2,1 faiz-bənd azalaraq 2026-cı ilin martında 28 faizə enməsi məzənnə ilə bağlı gözləntilərin nikbin olduğunu göstərir. Xüsusilə aprel ayında keçirilən valyuta hərraclarında bankların tələbinin əhəmiyyətli azalması nəticəsində valyuta bazarında təklif artıqlığı yaranıb və Mərkəzi Bank tərəfindən alışyönlü müdaxilə həyata keçirilib. Ötən 4 ayda Mərkəzi Bankın valyuta ehtiyatları 10,2 faiz artaraq 12,7 milyard dollara çatıb.

Qeyd edilən dövrdə xarici sektor göstəriciləri əlverişli olaraq qalıb. Gömrük statistikasına əsasən, 2026-cı ilin birinci rübündə ölkənin xarici ticarətində 1,4 milyard dollar məbləğində müsbət saldo qeydə alınıb ki, bu da ötən ilin müvafiq dövründəki göstəricini 93,3 faiz üstələyir.

**Növbəti qərar inflyasiya nəticələri əsasında veriləcək**

Mərkəzi Bankın 2026-cı və 2027-ci illərin sonuna cari əməliyyatlar hesabının profisiti üzrə proqnozu da yaxşılaşma istiqamətində yenilənib. Bu, son vaxtlar əsas ixrac məhsulları üzrə qiymətlərin yüksəlməsi, eləcə də qeyri-neft ixracının genişlənməkdə davam etməsi ilə bağlıdır. Pul siyasəti alətlərinin tətbiqi maliyyə bazarlarında gedən proseslər və bank sistemindəki likvidlik göstəriciləri əsasında tənzimlənir. Təminatsız pul bazarında qısamüddətli faizlər Mərkəzi Bankın faiz dəhlizi çərçivəsində, uçot dərəcəsinə yaxın səviyyədə formalaşır.

Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərar inflyasiya proqnozunun dəyişimi, habelə makroiqtisadi təhlillərin nəticələri əsasında veriləcək. İnflyasiya proqnozunun hədəfdən kənarlaşması riski yarandığı təqdirdə adekvat siyasət tədbirləri həyata keçiriləcək. Uçot dərəcələri ilə bağlı növbəti qərar iyun ayının sonlarında ictimaiyyətə açıqlanacaq.

*E.CƏFƏRLİ*

# Sabitliyə və rifaha qənim kəsilənlər...

## Bakı Avropa Parlamenti ilə əlaqələri kəsdi

### AP ölkəmizə qarşı təzyiq, şantaj və daxili işlərə kobud müdaxilə alətinə çevrilib

Cənubi Qafqaz son illərdə mühüm geosiyasi transformasiya mərhələsinə qədəm qoyub. Xüsusilə Azərbaycanın təşəbbüsləri ilə regionda yeni təhlükəsizlik mühiti və əməkdaşlıq zəmini formalaşmağa başlayıb. Vətən müharibəsindən sonra yaranmış reallıqlar ərazi bütövlüyünün bərpası ilə yanaşı, uzun illər davam edən qarşıdurmanı normallaşma və sülh perspektivləri ilə əvəzləyib. Bakı bu prosesdə aktiv siyasi iradə nümayiş etdirərək dövlətlərarası münasibətlərin tənzimlənməsi, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi və regional təmasların artırılması istiqamətində ardıcıl addımlar atır.

Amma erməni lobbisi yenə də öz ampulasındadır - sülh gündəliyi erməni lobbisinin təsiri altında olan bəzi dairələr və institutlar tərəfindən şantaja məruz qalır, regionda formalaşan yeni reallıqlara qarşı müqavimət artırılır. Bu kontekstdə Avropa Parlamentinin son dövrlərdəki "fəallığı" xüsusi diqqət çəkir. Avropa Parlamenti müxtəlif qətnamələr, siyasi bəyanatlar və informasiya kampaniyaları vasitəsilə bölgədə gedən proseslərə təsir etməyə çalışır. Bu fəaliyyət bəzən separatizmi açıq dəstəkləmək, bəzən Qarabağdan könüllü şəkildə Ermənistana gedənlər üzərindən təbliğat qurmaq, bəzən isə Azərbaycana qarşı xüsusi cinayətlər həyata keçirmiş, hazırda isə məhkəmə qərarı ilə məsuliyyətə cəlb edilmiş şəxslərə "azadlıq" tələb etmək kimi beynəlxalq hüquqa qarşı addımlarla müşayiət olunur. Xüsusilə yaxın dövrdə Ermənistanda keçiriləcək parlament seçkiləri fonunda bu cür fəallığın artması təsadüfi görünmür. Seçkilərdən sonra sülh istiqamətində real addımların atılması ehtimalı bəzi xarici dairələri daha da aktivləşdirir. Nəticə etibarilə, informasiya və siyasi müstəvidə aparılan bu kampaniyalar təkcə Azərbaycana qarşı deyil, bütövlükdə Cənubi Qafqazda sabitlik və uzunmüddətli əməkdaşlıq perspektivlərinə təsir göstərmək məqsədi daşıyır. Luis Morena Okampo, Cozef Borel kimi köhnə ermənirəpəstlərin də bu fəaliyyətə dəstək verməsi göstərir ki, şəbəkə geniş arealdan işləyir.

**Avropa Parlamenti: erməni maraqlarının dəstəkçisi...**

Avropa Parlamenti tərəfindən Azərbaycan Respublikasına qarşı qəbul edilmiş qətnamə isə qərəzli, selektiv və hüquqi əsaslardan məhrum sənəd kimi qiymətləndirilir. Avropa Parlamentinin sözügedən qətnaməsi Azərbaycanın daxili siyasətinə qiymət verməyə yönəlmiş siyasi xarakterli yanaşmadır - bu isə beynəlxalq hüququn neytrallıq və obyektivlik prinsiplərinə ziddir. Nəzərə alsaq ki, Avropa Parlamentinin qəbul etdiyi qətnamələr hüquqi baxımdan məcburi xarakter daşımır, bu sənədlər heç bir halda siyasi mövqe ifadəsi ola bilməz və hüquqi öhdəlik yarada bilməz. Bu səbəbdən, həmin qətnamənin Azərbaycan üzərində hüquqi təsir gücü yoxdur və onun hüquqi iddia kimi təqdim edilməsi əsassızdır.

Bununla belə, bu kimi qeyri-hüquqi qətnamələrin qəbulu AP-nin anti-Azərbaycan mövqeyinə bir daha "işıq salır". Vurğulandığı kimi, regionda başlanan sülh prosesi dəstəklənmək yerinə erməni lobbisinin təsiri ilə AP tərəfindən şantaja məruz qalır. Rəsmi Bakı isə bu kimi fəaliyyətləri qəbul etmir - Azərbaycanın həyata keçirdiyi siyasət regionda sülhün, sabitliyin və əməkdaşlığın möhkəmlənməsinə xidmət edir, iqtisadi inkişaf və qarşılıqlı hörmətə əsaslanan qonşuluq münasibətlərini təşviq edir. Avropa Parlamentinin ortaya qoyduğu mövqe isə yolverilməzdir. Bakı bu kimi əsassız, siyasi motivli və beynəlxalq hüququn prinsiplərinə uyğun olmayan sənədi yalnız beynəlxalq hüququn ayaqlar altına alınması kimi dəyərləndirir. Ölkəmiz hər zaman olduğu kimi, bu dəfə də öz qətiyyətini ortaya qoydu.

**30 fərqli hesab vasitəsilə 220-dən çox paylaşım edilib**

Qeyd edək ki, Milli Məclisin son iclasında Avropa Parlamentinin Azərbaycan əleyhinə fəaliyyəti ilə bağlı qərar qəbul etmək üçün Komissiya yaradılıb. Komissiyanın sədri Ziyafət Əsgərov, üzvləri Fazil Mustafa, Mubariz Qurbanlı, Tahir Mirkişili, Tural Gəncəliyev, Jalə Əliyeva, Səbinə Xasayeva olub. Komissiya ermənipərəst dairələr tərəfindən Azərbaycana qarşı həyata keçirilən informasiya kampaniyasına dair açıqlama yayıb. Açıqlamada bildirilir ki, Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası (Komissiya) öz səlahiyyətləri çərçivəsində apardığı monitorinqlər zamanı son günlər Azərbaycanı, eləcə də Ermənistan ilə Azərbaycan arasında sülh gündəliyini hədəfləyən dezinformasiya kampaniyasının həyata keçirildiyi müşahidə edilib. Araşdırmalar zamanı kampaniyanın hədəfli və vahid tezis ətrafında dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni lobbi təşkilatları, müəyyən nüfuz və vəzifə sahibi olan xarici ölkə vətəndaşları, habelə media orqanları tərəfindən aparıldığı müəyyən olunub: "Erməni lobbi təşkilatları bu dəfə qarayaxma kampaniyasını fərqli taktika seçərək bir neçə məsələ, o cümlədən qondarma "soyqırımı", "hərbi əsirlər" və Xankəndi şəhərindəki tikililər ətrafında ajiotaj yaratmaqla aparıblar. Eyni zamanda, məsələ əlaqələndirilmiş kampaniya kimi görünməsin deyə, iştirakçılara qapalı kanallar, elektron poçt və şifrələnmiş mesajlaşma platformaları vasitəsilə tezislərin verildiyi barədə faktlar aşkar edilib. Kampaniyada ABŞ, Avropa və Rusiyada mənzillənən erməni lobbi təşkilatları xüsusi aktivlikləri ilə seçiliblər. "X" (keçmiş "Twitter") sosial media platformasındakı kampaniyanın son birhəftəlik təhlili göstərib ki, dezinformasiya kampaniyasında 130 fərqli hesab vasitəsilə 220-dən çox paylaşım edilib, ümumilikdə bir milyona yaxın qarşılıqlı əlaqə (reaksiya) qeydə alınıb. Paylaşımlar daha çox erməniəsilli blogerlərin, erməni xəbər saytlarının, həmçinin ermənipərəst xarici bloger və fəalların hesablarından edilib".



Açıqlamada həmçinin qeyd olunub ki, bir sıra xarici ölkələrdə yerləşən, lakin o qədər də nüfuzlu olmayan bir sıra onlayn mətbu orqanlarında da oxşar tezislər əsasında yazılar gedib - bu sırada ABŞ, Birləşmiş Krallıq, Belçika, Polşa, İtaliya, Meksika, İspaniya, Gürcüstan, İsrail, Vatikan, Yunanıstan, Hindistan, Rusiya, Ermənistan və s. də var.

Komissiyanın müəyyən etdiyi faktlar bir daha göstərir ki, şəxsi məqsədlərini hər şeydən üstün tutan və vaxtilə münaqişədən yüksək dividendlər əldə edən bu dairələr bütün vasitələrdən, o cümlədən xarici ölkə parlamentlərindəki əlaltılarının, bir sıra şəhər merlərinin, hazırda və keçmişdə müəyyən vəzifə tutan şəxslərin xidmətlərindən istifadə etməklə Ermənistan və Azərbaycan arasında davam edən kövrək sülh prosesinə zərbə vurmağa, dövlətlərarası münasibətləri korlamağa çalışırlar".

**Rəsmi qərar...**

Komissiyanın açıqlamasının ardından isə Azərbaycanın Milli Məclisi Avropa Parlamenti ilə əlaqələri dayandırmaqla bağlı qərar qəbul edib. Bildirilib ki, Avropa Parlamenti səmimi əməkdaşlıq prinsiplərini inkar edən destruktiv mövqe nümayiş etdirir. Qurumun fəaliyyətinin mahiyyətində beynəlxalq hüququn norma və prinsiplərinin, ədalət anlayışının qəti surətdə rədd edilməsi dayanır. Bu qurum torpaqlarımızın Ermənistan tərəfindən 30 illik işğalına, yüzlərlə şəhər və kəndlərimizin, tarixi, dini və mədəni abidələrimizin dağıdılmasına, etnik təmizləməyə, 1 milyondan çox qaçqın və məcburi köçkünün insan hüquqlarına davamlı şəkildə etinasız yanaşıb. Avropa Parlamenti ilə əməkdaşlıq üçün nəzərdə tutulmuş platformalar - Avropa İttifaqı - Azərbaycan Parlament Əməkdaşlıq Komitəsi və Avronest Parlament Assambleyası isə ölkəmizə qarşı təzyiq, şantaj və daxili işlərə kobud müdaxilə alətinə çevrilib. Milli Məclis Azərbaycan Konstitusiyasının 95-ci maddəsinin III hissəsini rəhbər tutaraq qərara alıb ki:

1. Azərbaycan Respublikası Milli Məclisinin Avropa Parlamenti ilə bütün istiqamətlər üzrə əməkdaşlıq əlaqələri dayandırılsın.

2. Azərbaycan Respublikası Milli Məclisinin Avropa İttifaqı - Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin fəaliyyətində iştirakına son qoyulsun.

3. Avronest Parlament Assambleyasının Nizamnaməsinə uyğun olaraq, Azərbaycan Respublikası Milli Məclisinin bu təşkilatda üzvlüyünə xitam verilməsi barədə prosedur qaydalarının icrasına başlanılsın və prosedur dövründə Milli Məclisin nümayəndə heyəti Avronest Parlament Assambleyasının tədbirlərinə qatılmasın".

*P.İSMAYILOV*

# Avropa Parlamentinin sistemli və qərəzli kompaniyası

## Bu dəfə hədəfdə Gürcüstandır

Son vaxtlarda Avropanın müxtəlif təsisatları, bütövlükdə Avropa İttifaqı (Aİ) ilə Gürcüstan hakimiyyəti arasında ziddiyyətli proseslər izlənilir. Belə ki, Brüsseldən rəsmi Tbilisinin ünvanına gələn ittiham dolu qınayıcı bəyanatların ardı-arası kəsilmir. Xərda Azərbaycanda da mənfi mənada məşhur olan Avropa Parlamentinin (AP) səsi daha ucadan eşidilir.

Qurum bu günlərdə qonşu Gürcüstanla bağlı yeni hesabat qəbul edib. Xarici İşlər Komitəsinin təqdim etdiyi illik hesabatı Avropa Parlamentinin 53 üzvü dəstəkləyib, 14-ü isə əleyhinə səs verib. Layihə hesabatına verilən izahlı açıqlamada qeyd edilir ki, bu, Gürcüstanın Avropa İttifaqına namizəd ölkəsi kimi Avropa Komissiyasının hazırladığı ikinci hesabatdır.

### Rəsmi Tbilisi nədə ittiham olunur?

Müxtəlif Avropa təsisatlarının Gürcüstanla bağlı silsilə qətnamələr, hesabatlar qəbul etmələri və bəyanatlar səsləndirmələri onu deməyə əsas verir ki, Brüssel qonşu ölkəyə qarşı sistemli və çox ziyanlı kompaniyaya başlayıb. Bu kompaniyada Avropa siyasətçilərinin Gürcüstanda hakimiyyətlə xalq arasında bölücülük yaratmaq səyləri qırmızı xətt kimi keçir. Yəni bütövlükdə ölkə, cəmiyyət hədəfə alınmır, "Gürcü Arzusu -Demokratik Gürcüstan" iqtidarı isə, necə deyərlər, ağ yuyulub qara sərilir. Bu, güc mərkəzləri tərəfindən ayrı-ayrı ölkələrdə sınaqdan çıxarılan "milli gücün parçalanması" taktikasının klassik nümunəsidir. Biz bu taktikadan istifadə edilməklə yaxın keçmişdə ayrı-ayrı ölkələrdə rəngli inqilablara rəvac verilməsinin şahidi olmuşuq. Lakin dünya şahiddir ki, rəngli inqilabların baş verdiyi heç bir ölkədə xoşbətlik yaşanmayıb, əksinə xalq uzunmüddətli qarşıdurmalara sürüklənib. Elə zamnında Gürcüstanın özündə də oxşar ssenari ilə hadisələr baş verib, "Qızılgül inqilabı" adı ilə hakimiyyət dəyişikliyinə gedilib. Nəticə isə faciəli olub - qonşu ölkə qısamüddətli müharibədə ərazi itkilərinə məruz qalıb.

Belə görünür ki, Avropa təsisatları Gürcüstanda yenidən hakimiyyətlə cəmiyyət arasında dibi görünməyən uçurum yaratmaq istəyir. Bunu bəhs olunan hesabatın məzmunundan də aydın şəkildə görmək mümkündür.

Sənəddə əsas diqqətin Gürcüstanda demokratiya, qanunun aliliyi və Avropaya inteqrasiya sahəsində mövcud vəziyyətə yönəldiyi bildirilir. Hesabat layihəsində Avropa Parlamenti "demokratik geriləmə, artan repressiyalar, düşmən ritorika, dezinformasiya və təhdidlər fonunda Avropa və demokratik Gürcüstan uğrunda mübarizəni davam etdirən" gürcü xalqı ilə tam həmrəylik ifadə edir. Sənəddə qeyd olunur ki, "Gürcü Arzusu" haki-



miyyəti ölkənin Avropaya inteqrasiya kursunu faktiki olaraq dəyişib. Vurğulanır ki, Avropa İttifaqı və üzv dövlətlər tərəfindən Bidzina İvanişvili, eləcə də "Gürcü Arzusu"nun əsas liderləri, hakimlər, prokurorlar və digər vəzifəli şəxslərə qarşı tətbiq olunan hədəfli fərdi sanksiyalar cəzasızlıqla mübarizədə mühüm alətdir. Həmçinin qeyd edilir ki, Aİ səviyyəsində yekdillik olmasa da, getdikcə daha çox üzv dövlət Gürcüstan rəsmilərinə qarşı fərdi sanksiyalar tətbiq edir və digər ölkələr də buna qoşulmağa çağırılır. Bundan əlavə, sənəddə ATƏT çərçivəsində 24 ölkənin təşəbbüsü ilə "Moskva mexanizmi"nin işə salınması alqışlanır. Bu mexanizm Gürcüstanda öhdəliklərin yerinə yetirilməsini qiymətləndirmək üçün ölkəyə ekspert missiyasının göndərilməsinə imkan verir.

Hesabatda həmçinin Avropa Komissiyasının Gürcüstanın diplomatik, xidməti və rəsmi pasport sahibləri üçün Aİ ilə vizasız rejimin dayandırılması ilə bağlı təklifi qeyd olunur. Bildirilir ki, bəzi üzv ölkələrin - xüsusilə Macarıstan və Slovakiyanın mövqeyi səbəbindən müəyyən məhdudiyyətlərin tətbiqi mümkün olmayıb. Sənəddə xəbərdarlıq edilir ki, Gürcüstan hakimiyyətinin mövcud siyasəti davam edərsə, gələcəkdə bütün vətəndaşlar üçün vizasız rejimin dayandırılması riski yarana bilər və bunun məsuliyyəti hakimiyyətin üzərinə düşəcək.

### Aİ-yə üzvlük vədi milli dövlətlərə qarşı təzyiq aləti kimi

Gürcüstanın nümunəsində bir daha təsdiqlənir ki, Brüssel Aİ-yə üzvlük vədini milli dövlətlərə qarşı təzyiq aləti qismində istifadə etməyə çalışır. Xatırladaq ki, yaxın keçmişdək Avropa İttifaqı-Gürcüstan münasibətləri qonşu ölkəyə quruma üzvlüyə namizəd status verilməsinədək irəliləmişdi. Lakin Brüsselin yanaşmasına görə, Gürcüstan hakimiyyətinin milli və siyasi iradəsi status öhdəlikləri ilə bir növ çərçivəyə salınırdı.

"Gürcü" Arzusu" iqtidarı keçmişin acı təcrübəsinə əsaslanmaqla bu xətti qəbul etmədi. Hakimiyyət Avropaya inteqrasiya siyasətinə sadiq qaldığını bildirməklə yanaşı, milli maraqların, xalqın tarixi ənənələrinin qorunmasını, xarici təsirin azaldılmasını hədəfləyən bir neçə mühüm qanunun qəbul edilməsinə nail oldu. Bununla da Gürcüstan hakimiyyəti ilə Aİ arasında çatlar yarandı və bu çatlar getdikcə dərinləşir.

### Təzyiq və şantaj qəbuledilməzdir

Gürcüstanın Baş naziri İrakli Kobaxidze Avropa Parlamentinin deputatlarını ölkəyə qarşı təzyiq və şantajda ittiham edib. Kobaxidze jurnalistlərə açıqlamasında bildirib ki, Avropa Parlamentində Gürcüstanla bağlı səsləndirilən bəzi çağırışlar ölkəyə qarşı təzyiq xarakteri daşıyır: "Avropa Parlamentinin deputatları Gürcüstanda azad mediaya hücum edir, vizasız rejimin mümkün dayandırılması məsələsini gündəmə gətirirlər. Bu, gürcü xalqına qarşı şantaj və rüsvayçılıqdır. Avropa Parlamentində Gürcüstanla bağlı qəbul edilən hesabatda "İmedi", "Rustavi 2" və "PosTV" telekanallarına sanksiya tətbiqi və Gürcüstan vətəndaşları üçün vizasız rejimin mümkün dayandırılması məsələsi də yer alıb. Avropa Parlamenti yaxın zamanda Gürcüstanla bağlı yeni qətnamə qəbul etməyə hazırlaşır", - deyə Baş nazir vurğulayıb.

Kobaxidze həmçinin Avropa bürokratiyasını ölkədə xaos yaratmaq cəhdində ittiham edib

"Bu hesabat Gürcüstan cəmiyyətində radikal hissləri qütbləşdirmək və təşviq etmək üçün yeni bir cəhddir". Bu fikirlər isə Gürcüstan Xarici İşlər Nazirliyinin (XİN) yaydığı mətbuat açıqlamasında yer alıb. Açıqlamada bildirilir ki, hesabatda faktlar qəsdən təhrif edilir, absurd ittihamlar irəli sürülür və dezinformasiya yaymaq üçün məlumatları manipulyasiya etmək metodlarından istifadə olunur.

**Mübariz FEYİZLİ**

# Yaxın Şərq müharibəsi bitdi?

## ABŞ "Epik qəzəb" əməliyyatının başa çatdığını elan etdi

Yaxın Şərqdə müharibə başa çata bilər. Belə ki, ABŞ Dövlət katibi Marko Rubio İranda "Epik Qəzəb" Əməliyyatının bitdiyini elan edib. Ağ Evdə keçirilən mətbuat konfransında Rubio 28 fevralda başlayan ABŞ-ın "Epik Qəzəb" Əməliyyatının başa çatdığını, məqsədlərinə nail olduqlarını deyib. "Epik Qəzəb Əməliyyatı başa çatdı. Prezident Konqresə məlumat verən kimi biz bu mərhələni başa vurduq. Artıq Azadlıq Layihəsi Əməliyyatına başlamışıq", - deyə o bildirib.

Dövlət katibi əlavə edib ki, Vaşinqton Tehranla münaqişənin diplomatik həlli üzərində işləyir. "İran bu vəziyyətin reallığını qəbul etməli, danışıqlar masasına gəlməli və özləri üçün yaxşı, lakin nəticədə dünya üçün faydalı olan şərtləri qəbul etməlidir", - deyə o, davam edib.

Markо Rubionun sözlərinə görə, ABŞ prezidenti gələcək danışıqlardan əvvəl "bütün məsələləri həll edən anlaşma memorandumu" hazırlamaq istəyir. O, Amerika tərəfinin İranla zənginləşdirilmiş uran məsələsini müzakirə etməyə davam edəcəyini açıqlayıb.

**Qanunvericiliyin tələbi ilə...**

Xatırladaq ki, Associated Press (AP) agentliyinin məlumatına görə, ABŞ Prezidenti Donald Tramp İranla müharibəni bitmiş hesab edib və bu barədə mayın 1-də Konqresə məlumat verib. Həmin gün İranla hərbi münaqişəni davam etdirmək üçün Konqresin təsdiqləmə müddəti başa çatırdı - Tramp Nümayəndələr Palatasının spikeri Mayk Conson və Senatın müvəqqəti prezidenti Çak Qrasliyə göndərdiyi məktubda bildirib ki, "28 fevral 2026-cı ildə başlayan hərbi əməliyyatlar dayandırılıb".

Eyni zamanda, Amerika prezidenti məktubunda faktiki müharibənin hələ bitmədiyini də açıq şəkildə qeyd edib - "AP"-nin məlumatına görə, Tramp məktubunda vurğulayıb ki, "ABŞ-ın İran rejiminə qarşı əməliyyatlarının uğuruna və davamlı sülhün təmin edilməsi üçün davam edən səylərə baxmayaraq, İranın ABŞ və silahlı qüvvələrimiz üçün yaratdığı təhlükə əhəmiyyətli olaraq qalır".

Bu məktub ABŞ Konqresində də birmənalı qarşılanmayıb - Senatın Demokratlar fraksiyasının lideri Çak



Şumer Konqresə göndərilən məktubda Ağ Evin arqumentlərini əsassız adlandırıb. O, "X" sosial media platformasında yazıb: "Bu, qanunsuz müharibədir və respublikaçıların hər gün ortaq olduğu və onun davam etməsinə icazə verdiyi gün həyatların təhlükə altında olduğu, xaosun hökm sürdüyü və qiymətlərin artdığı daha bir gündür".

Qeyd edək ki, 1973-cü il "Müharibə Səlahiyyətləri Qətnaməsi"nə əsasən, ABŞ prezidenti yalnız 60 gün müddətinə hərbi əməliyyatlar apara bilər. Daha sonra, "qaçılmaz hərbi zərurət" halında, onları dayandırmalı və ya Konqresdən 30 günlük uzadılma tələb etməlidir.

**"Epik qəzəb" in "qiyməti...**

CBS News-un ABŞ rəsmilərinə istinadən verdiyi məlumata görə, İrana qarşı müharibədə ABŞ-ın faktiki xərcləri Pentaqonun rəsmi 25 milyard dollarlıq rəqəmindən iki dəfə çoxdur, yəni 50 milyarddır. ABŞ Müdafiə Nazirliyinin baş maliyyə direktoru Culs Hyörts Konqresə rəsmi müharibə xərcinin 25 milyard dollar təşkil etdiyini bildirmişdi Lakin CBS News mənbələri bildirir ki, bu rəqəmə məhv edilmiş, zədələnmiş avadanlıq, ABŞ hərbi bazalarına dəyən ziyan daxil deyil. Xüsusilə, ABŞ ordusu hər biri 30 milyon dollar dəyərində olan ən azı 24 MQ-9 Reaper dronunu itirib. Bir çox amerikalı siyasətçi də bu rəsmi rəqəmin az olması düşüncəsindədir.

**Yeni əməliyyat "Epik qəzəb"dən fərqlənir...**

Rubio Ağ Evdə keçirdiyi mətbuat konfransında ölkəsinin artiq Azadlıq Layihəsi Əməliyyatına başladığını bildirib. Mayın 3-dən etibarən Prezident Donald Tramp ABŞ-ın digər ölkələrdən gələn gəmilərin Hörmüz boğazından keçməsinə kömək etmək üçün "Azadlıq Layihəsi"ni başlatdığını elan edib. Pentaqon rəhbəri Pit Heqset bu əməliyyatla bağlı danışan zaman bildirib ki, bu, ayrı bir əməliyyatdır və "Epik Qəzəb"dən fərqlidir. Heqset izah edib ki, "Azadlıq Layihəsi müdafiə xarakterli və müvəqqətidir. O vurğulayıb ki, bu əməliyyatın tək bir missiyası var: dinc kommersiya gəmiçiliyini İran təcavüzündən qorumaq.

**"Azadlıq Layihəsi" dayandırılır?**

ABŞ rəsmiləri Azadlıq Layihəsi Əməliyyatının müraciət əsasında formalaşdırıldığını bildirir. Prezident Tramp deyib ki, çoxsaylı ölkələr bu tələblə Vaşinqtona müraciət ediblər: "Həmin ölkələrin heç biri Yaxın Şərq münaqişəsində iştirak etmir". O, əməliyyatın sırf humanitar xarakter daşıdığını, qida və digər təchizatı az olan gəmi heyətinə kömək etmək üçün nəzərdə tutulduğunu bildirib.

Bu arada ABŞ administrasiyası Hörmüz boğazından gəmilərin tranzitini asanlaşdırmaq üçün həyata keçirilən "Project Freedom" (Azadlıq Layihəsi) əməliyyatını müvəqqəti dayandırmaq qərarına gəlib. ABŞ Prezidenti Donald Tramp bu barədə "Truth Social"da yazıb. Onun sözlərinə görə, qərar İranla razlaşma üzrə danışıqların uğurla başa çatması və sazişin imzalanması ehtimalı barədə daha aydın siqnallar alınan müddətə qədər qəbul edilib. Tramp qeyd edib ki, bununla bağlı sorğu Pakistan və digər ölkələrdən gəlib. "Biz qarşılıqlı olaraq razılığa gəldik ki, tam blokada qalacaq, lakin danışıqların başa çatdırılması və sazişin imzalanması üçün " Project Freedom" qısa müddətə dayandırılacaq", - paylaşımdda bildirilir.

Xatırladaq ki, bundan əvvəl Mərkəzi Komandanlıq (CENTCOM) bəyanat verməşdi ki, bu əməliyyat idarə olunan raket esminetslərini, 100-dən çox quru və dəniz təyyarəsini, çoxməqsədli pilotsuz sistemlərini və təxminən 15.000 Amerika hərbi qulluqçusunu əhatə edir.

**ABŞ-dan BMT TŞ-ya yeni qətnamə...**

Marko Rubio həmçinin ABŞ-ın Hörmüz boğazı ilə bağlı BMT Təhlükəsizlik Şurasına İrandan "hücumları dayandırmağı, mina atmağı və rüsum tətbiq etməyi" tələb edən yeni qətnamə layihəsi təqdim etdiyini açıqlayıb. Qeyd edək ki, bir müddət əvvəl də Fars körfəzi ölkələrinin həmmüəllifliyi ilə belə bir qətnamə layihəsi təqdim olunmuşdu, amma bəzi dövlətlərin veto qoyması səbəbilə qəbul edilməmişdi. ABŞ administrasiyası bu dəfə qətnamə layihəsinə dəyişiklik edib, lakin Rusiya və Çinin dəstəyinə əmin deyil. Marko Rubio Ağ Evdə keçirilən brifinqdə yeni qətnamənin qəbul edilmə zəmanətləri ilə bağlı suala cavab olaraq bildirib ki, "Bu bəlli deyil". "Düşünürəm ki, heç kim yenidən veto qoyulmasını istəmir, ona görə də mətndə bəzi kiçik düzəlişlər etdik", - o əlavə edib. Qeyd edək ki, qətnamə ticarət gəmilərinə qarşı "aqressiv hərəkətlərin" dayandırılması, qoyulmuş minaların təmizlənməsi, keçid rüsumu yığmaq cəhdlərindən çəkinməni özündə ehtiva edir.

**SADİQ**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Təbiətin pıçıltısınıdan doğan poeziya

## Musa Yaqub dağların, çayların, insan qəlbinin şairi idi...

Musa Yaqub Azərbaycan ədəbiyyatının ən kövrək duyğulu, təbiətə və insana dərin bağlılığı ilə seçilən şairlərindən biri kimi yaddaşlarda yaşayır. Onun şeirlərində sanki dağların sükutu, çayların pıçıltısı, kənd yollarının tozu və insan qəlbinin gizli ağrıları bir-birinə qarışaraq elə bir ahəng yaradır ki, oxucu hər misrada həm öz keçmişini, həm də itirdiyi sadəliyin izlərini tapır. Onun yaradıcılığına nəzər saldıqda aydın şəkildə hiss olunur ki, Musa Yaqub üçün söz sadəcə ifadə vasitəsi deyil, eyni zamanda bir yaddaş sandığıdır. O sandıqda uşaqlıq xatirələri, insan münasibətlərinin incə çalarları və zamanın dəyişməsi ilə yaranan nisgil elə ustalıqla qorunur ki, hər bir şeir oxucuya tanış görünür.

Bu gün Xalq şairinin vəfatından beş il ötür. Musa Yaqub 2021-ci il mayın 7-də İsmayıllı rayonunda 84 yaşında dünyasını dəyişib. Yaşadığı İsmayıllı rayonunun Buynuz kənd qəbiristanlığında həyat yoldaşının məzarının yanında torpağa tapşırılıb.

Ədəbi fəaliyyətə 1957-ci ildə “Azərbaycan” qəzetində çap olunan “İki qəlb, iki dünya” poeması ilə başlayıb. “Yarpaqlar oxuyur” (1966), “Bu məhəbbət yaşadır məni” (1966, 1970), “Mənim kainatım” (1973), “Üzü bəri baxan dağlar” (1977), “Yaxşı ki, sən varsan” (1979), “Bir sim üstə” (1983), “İki qəlbin işığı” (1985), “Mənim sevgi taleyim” (1988), “Ürəyimdə yerin qaldı” (1992), “Nanə yarpağı” (1996), “Payızdan yaza yol varmı” (1999), “Ruhumla söhbət” (2000), “Bu dünyanın qara daşı göyərməz” (2007), “Dövrün dəyirmanı” (2012) şeirlər və poemalar kitablarının müəllifidir.

Şairin dili sadə görünsə də, bu sadəliyin arxasında böyük bir fəlsəfi dərinlik gizlənir, çünki o, mürəkkəb fikirləri bəzəkli söz yığınları ilə deyil, səmimi və axıcı ifadələrlə çatdıraraq oxucunu düşünməyə, hiss etməyə və bəzən də susaraq anlamağa dəvət edir. Bu xüsusiyyət onun poeziyasını həm xalq ruhuna yaxınlaşdırır, həm də onu zamansız və universal edir.

Musa Yaqubun şeirlərində tez-tez rast gəlinən təbiət motivləri sadəcə təsvir xarakteri daşımır, əksinə, insan ruhunun aynası kimi çıxış edir, çünki onun üçün küləyin əsintisi, yarpağın titrəyişi və ya yağışın damcıları insanın daxili aləminin müxtəlif halları ilə səsləşir. Bu paralellik şeirlərə xüsusi bir emosional güc qazandırır. Eyni zamanda, onun yaradıcılığında tənhalıq, sakit kədər xətti də açıq şəkildə hiss olunur. Bu kədər nə ümidsizlikdir, nə də qaranlıq bir ruh halı, əksinə, həyatın faniliyini dərk edən, keçən zamanın geri dönməzliyini anlayan və buna baxmayaraq gözəllikləri qorumağa çalışan bir insanın dərin və ləyaqətli duyğularının ifadəsidir.

Bütün bunlarla yanaşı, Musa Yaqubun poeziyası oxucuya təkcə estetik zövq vermir, həm də onu öz köklərinə, torpağına, keçmişinə və ən əsası, insan olaraq öz daxili aləminə qaytarır. Bu səbəbdən onun şeirləri oxunduqca köhnəlmir, əksinə, hər dəfə yeni bir məna qatını açaraq oxucunu yenidən öz sehrinə salır və uzun müddət yaddaşdan silinməyən bir təsir buraxır.

Söz yox ki, Azərbaycan poeziyasında öz dəst-xətti, fərqli üslubu olan, hər kəsin yaradıcılığına sonsuz məhəbbət bəslədiyi Musa Yaqub şair kimi heç vaxt unudulmayacaq.

Dünyanın adi daşı ilə insan dilində danışmağı bacarmış şair necə yaddan çıxa bilər...

*Leyləklərin çöp yuvası boş qalıb,*
*Bahar gedib, payız gəlib, qış qalıb,*
*Göy çəməndə ocaq yanıb, daş qalıb,*
*Bu dünyanın qara daşı göyərməz.*

Onu “Bu dünyanın qara daşı göyərməz” şeiri məşhurlaşdırdı. Təsadüfi deyil ki, bu şeirinə 80-dən çox nəzirə yazılıb.

Prezident İlham Əliyevin 25 may 2019-cu il tarixli Sərəncamı ilə Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Musa Yaqub “Xalq şairi” fəxri adına layiq görülüb.

***Yeganə BAYRAMOVA***

## Radio necə yaranıb?

# Dalğalardan gələn səs...

Radio bu gün kütləvi informasiya vasitəsi kimi öz aktuallığını qoruyub saxlayır. O, yalnız informasiya mənbəyi deyil, eyni zamanda emosiyaların daşıyıcısıdır. Çünki bir diktorun səsindəki titrəyiş, bir müğənninin ifasındakı hiss, yaxud canlı yayımdakı ani reaksiyalar dinləyicinin qəlbində birbaşa iz buraxaraq onu hadisələrin mərkəzinə çəkir və görünməyən, lakin güclü bir bağ yaradır. Məhz buna görə radio vizual vasitələrin sürətlə inkişaf etdiyi müasir dövrdə belə öz aktuallığını qoruyub saxlayır.

Bununla yanaşı, radio fövqəladə vəziyyətlərdə etibarlı rabitə vasitəsi kimi geniş və bənzərsiz imkanlar təqdim edir. Eyni zamanda, ana dilimizin yayılması və qorunması üçün mühüm platforma rolunu oynayır. Elektron media vasitələri arasında ən qədimlərdən biri hesab olunan qulaq dostumuz zəngin və uzun bir inkişaf yolu keçib.

Radio təkcə texniki vasitə kimi deyil, həmçinin demokratik müzakirənin formalaşması və möhkəmlənməsinin baş verdiyi informasiya məkanıdır. 7 may dünya elm və texnika tarixinə Radio Günü kimi daxil olub. Bu gündə bütün radio dinləyiciləri, audiovizual mütəxəssislər və yayımçılar təkcə radionun xüsusiyyətlərinə hörmətlə yanaşmağa deyil, həm də onun sülhü təşviq etmək üçün unikal alətə çevrilməsinə töhfə verməyə dəvət edilir.

**Radionun yaranma tarixi**

Radionun meydana çıxması üçün səsin yazılıb yenidən canlandırılması, bundan daha önəmlisi isə fəzada mövcud olan elektromaqnit dalğalarının tapılıb bəşəriyyətin ixtiyarına verilməsi zəruri idi. Səsyazmanın tarixi 13-cü əsrdə - Almaniyada qraf “Böyük Albert”lə başlasa da, sonralar Fransa (J.Dyuqamel və L.Skot), Böyük Britaniya (T.Yunq) və Rusiyada (A.Krotsenşteyn) davam etdirilsə də, proses 19-cu əsrdə ABŞ-da sona çatdı. Məşhur ixtiraçı T. Edison davamlı sınaqlardan sonra 1877-ci ilin dekabrında düzəltdiyi fonoqrafın qarşısında həyəcanla “Meri və onun körpə quzusu” adlı uşaq şeirini söyləyir. Bir dəqiqədən sonra ixtiraçının köməkçisi C.Krues heyrət içində aparatın həmin şeiri anlaşılmaz şəkildə təkrar etdiyini eşidir. Beləliklə, səsin dəqiq yazılması və onun yenidən eşidilməsi kəşf olunur, lakin bu, radionun kəşfi demək deyildi. Bundan əvvəl teleqrafın (1837), Morze əlifbasının (1843), telefonun (1876) və səsin telefonla ötürülməsinin (1880) kəşfi də hələ radionun ixtirasını yaxınlaşdırmırdı. Bunun üçün fəzadakı elektromaqnit dalğaları kəşf olunmalı, bu dalğaların axını insanın iradə və istəyinə tabe edilməli, məlumatı naqilsiz, yəni elektromaqnit dalğaları ilə uzağa ötürmək üsulu meydana çıxmalı idi.

**Kəşf kimə aiddir?**

Radionun kəşfi 1894-cü ildə italyalı mühəndis, radiotexnik Qulyelmo Markoniyə nəsib olur. Uzaq məsafəyə hava dalğaları ilə simsiz xəbər göndərmək marağını təmin etmək üçün Boloniyadakı evinin damında inadla təcrübələr aparan ixtiraçı nəhayət, öz istəyinə çatır.

Markoninin hələ məktəblikən beynindən çoxlu ixtiralar etmək istəyi keçirdi. 20 yaşında olarkən elektromaqnit dalğaları haqqında oxuduğu bir yazı onu çox cəlb etdiyindən gənc mühəndis eksperimentlərə başladı. O, xəyali olanları praktikada tətbiq etmək qərarına gəldi. Markoninin valideynləri övladlarının çox xərc aparan eksperimentləri üçün pullarını əsirgəmədilər. Maraq, bilik və praktik bacarıq 20 yaşlı bu gənci bütün Avropada məşhurlaşdırdı. İtaliyada yaşayan Markoni 21 yaşında İngiltərəyə köçdü və orada naqilsiz rabitə şirkəti yaratdı.

Q.Markoni ilə təxminən eyni vaxtda, 1895-ci ildə rus mühəndisi Aleksandr Popov da elektromaqnit dalğalarını kəşf etmiş və onun tapıntısı dərhal təcrübədə sınaqdan keçirilmişdi. Elektromaqnit dalğaların mövcudluğunu göstərməyin daha həssas və etibarlı üsulunu tapan A.Popov bu dalğaları bilavasitə qeydə alan “Kogerer” adlı ölçü cihazı da düzəltmişdi. 1900-cü ilin sərt qışında Finlandiyada - Lavensaari gölündə qəzaya uğramış balıqçıların xilas edilməsində A.Popovun təklif etdiyi bu cihaz radioteleqraf kimi mühüm rol oynadı və bundan sonra rus mühəndisinin ixtirasına diqqət xeyli artdı. Son dövrlərdə, yəni dünya elmi ilə təmaslar artdıqca, o cümlədən radionun tarixi ilə bağlı dəqiq bilgilər çoxaldıqca Rusiya alimləri yanlış olaraq “radionu kim kəşf edib? Markoni, yoxsa Popov?” dilemmasını ortaya atmağa çalışırlar. Əlbəttə, radionun inkişafında A.Popovun xidmətləri danılmazdır. Amma dünya radionun banisi kimi Markonini tanıyır. Amma yaxşıdır ki, bu sahədə A.Popovun ixtiraları da danılmır. Məsələn, son dövrün bir çox sorğu kitablarının səhifələrində Markoni və Papov “barışdırılır”.



**Azərbaycanda radionun yaranması**

Azərbaycan radiosu 1926-cı il noyabrın 6-da yaradılıb. Həmin gün ölkə paytaxtının küçələri və meydanlarında qurulmuş reproduktorlardan ilk dəfə “Danışır Bakı!” ifadəsi ətrafa yayıldı. Radioya təkcə Bakıda deyil, ətraf yaşayış məntəqələrində də maneəsiz qulaq asa bilirdilər. O zaman həmin hadisə Azərbaycan xalqının siyasi və mədəni həyatında böyük bir yenilik idi. İlk dövrdə Bakı studiyası indiki İstiqlaliyyət küçəsi, 10 ünvanında yerləşən Azərbaycan Milli Elmlər Akademiyasının əsas binasının (keçmiş İsmailliyyə) üçüncü mərtəbəsində cəmi 3 otaqda fəaliyyət göstərirdi.

Göründüyü kimi, radio dalğalarının görünməz sehri ilə bir nöqtədən yayılan səsin kilometrlərlə uzaqlara çatması, müxtəlif şəhərləri, kəndləri, hətta qitələri bir-birinə bağlaması insan təxəyyülünün sərhədlərini genişləndirən, dünyanı daha kiçik və əlçatan edən möhtəşəm bir körpü rolunu oynayır. Bu gün rəqəmsal platformalar, podkastlar və internet radiosu ənənəvi yayım formalarını yeni çalarlarla zənginləşdirərək radionu daha interaktiv və fərdi hala gətirib. Beləliklə, hər bir insan öz zövqünə uyğun məzmunu seçə, dünyanın istənilən nöqtəsindən yayımlanan proqramları dinləyə və qlobal informasiya axınının bir hissəsinə çevrilə bilir. Bütün bunlar radionun sadəcə keçmişin nostaljik yadigarı deyil, həm də gələcəyin dinamik və dəyişkən media vasitəsi olduğunu sübut edir.

***Yeganə BAYRAMOVA***

# “Bakcell” “Spark @ LANDAU” proqramının innovasiya tərəfdaşıdır




İnnovasiya lideri “Bakcell” gənclərin innovasiya və texnologiya sahəsində inkişafını dəstəkləmək məqsədilə LANDAU məktəbinin “Spark @ LANDAU” proqramına innovasiya tərəfdaşı kimi qoşulub.

“Spark @ LANDAU” məktəbin 8-11-ci sinif şagirdləri üçün nəzərdə tutulmuş startap və innovasiya proqramıdır. Proqram şagirdlərin ideyalarını real biznes mühitində formalaşdıraraq təşəbbüskarlıq bacarıqlarını praktik şəkildə inkişaf etdirir.

Proqramın əsas istiqamətlərindən biri olan “Təhsildə süni intellekt” təşəbbüsü çərçivəsində iştirakçılar təhsil sahəsinə yönəlmiş süni intellekt əsaslı layihələr hazırlayıblar. Final tədbirində ümumilikdə 19 komanda öz startap layihələrini təqdim edib. Təqdimatların nəticələrinə əsasən, münsiflər heyəti tərəfindən ən uğurlu 3 komanda qalib seçilib.

Tədbirdə çıxış edən “Bakcell”in ictimaiyyətlə əlaqələr və korporativ kommunikasiyalar üzrə direktoru Aysel Süleymanova “Spark @ LANDAU” proqramının gənclərin innovasiya ekosisteminə erkən inteqrasiyasında mühüm rol oynadığını bildirib. Onun sözlərinə görə, proqram şagirdlərə ideyalarını məhsula çevirmək və təqdim etmək bacarıqları qazandırır. Süleymanova, həmçinin “Bakcell”in süni intellekt və innovasiya təşəbbüsləri ilə bu istiqamətdə dəstəyi davam etdirdiyini vurğulayıb.

“Bakcell” süni intellekt və rəqəmsal həllər sahəsində həyata keçirdiyi təşəbbüslərlə ölkədə innovasiya ekosisteminin formalaşmasında fəal rol oynayır. Şirkət gənclərin texnologiya və startap mühitinə erkən inteqrasiyasını dəstəkləməklə, real təsir yaradan ideyaların inkişafına və gələcək nəsil innovatorların yetişməsinə töhfə verir.

**“Bakcell” haqqında**

“Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan “Bakcell” süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

“Bakcell” müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5232**
**Sifariş: 602**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova